RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 193 (8786) ŞƏNBƏ, 11 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyev Qafqazın ən qüdrətli ordusunun gücünə güc qatır













## Azərbaycan-Türkiyə birgə hərbi təlimləri birliyin, qardaşlığın növbəti təzahürüdür

**Vətən müharibəsindəki şanlı qələbədən aylar ötməsinə baxmayaraq, qüdrətli Azərbaycan Ordusunun parlaq qələbəsinin sevincini hələ də qürurla yaşamaqdayıq.**

Ordumuzun yeni müharibə modeli, yəni aparılan əməliyyatlar və savaşın nəticəsi bu gün də dünyanın hərbi analitikləri tərəfindən müzakirə olunmaqdadır. Bəzi mütəxəssislərin “smart müharibə” adlandırdıqları bu savaşda çox düzgün hesablama və konkret şərait üçün unikal bir strategiya tətbiq edilib. Pilotsuz uçuş aparatları isə yeni müharibə formatının bünövrəsini qoyub. Ordumuzun həyata keçirdiyi müasir döyüş taktikası dünya hərb praktikasında yeni nəsl savaşı kimi dəyərləndirilir.

Ali Baş Komandan İlham Əliyev isə bu müharibəni XXI əsrin yeni savaşı adlandırıb.

### Strateji əhəmiyyətə malik təlimlər

Vətən müharibəsinin bitməsinə rəğmən, ordumuzun beynəlxalq standartlara uyğun daha da gücləndirilməsi, modernləşdirilməsi prioritet olaraq qalır. Bu baxımdan, qardaş Türkiyə ilə birgə təlimlər vasitəsilə bu sahədə əməkdaşlığın genişləndirilməsi mühüm strateji əhəmiyyətə malikdir.

2013-cü ildən başlayaraq Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında birgə hərbi təlimlərin keçirilməsi hər iki ölkənin ordularının döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələr arasında təcrübə mübadiləsinin həyata keçirilməsi, müxtəlif qoşun növlərinin qarşılıqlı fəaliyyətinə nail olmaq baxımından böyük əhəmiyyət kəsb edir. Ona görə də iki ölkənin ordusunun iştirakı ilə keçirilən və bütün qoşun növlərini əhatə edən təlimlərin sayı ildən-ilə artmaqdadır.

İki qardaş ölkə arasında bağlanan hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, hazırda həm Türkiyədə, həm də ölkəmizdə təlimlər keçirilir. İki dövlətin Hərbi Hava Qüvvələrinin iştirakı ilə Konya şəhərində “TurAz Şahini - 2021” birgə taktiki-uçuş təlimləri və işğaldan azad edilmiş Laçın rayonunda birgə döyüş atışlı taktiki təlimlər davam edir.

Konyadakı təlimlərdə iki ölkənin Hərbi Hava Qüvvələrinin iştirakı ilə birgə əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyətin və fərqli xüsusiyyətlərə malik döyüş təyyarələri arasında rabitə əlaqəsinin uzlaşdırılması imkanları öyrənilir. Eyni zamanda havadan zərbələr endirməklə şərti düşmənin hava hücumundan müdafiə vasitələri və hərbi təyinatlı strateji obyektlərin məhv edilməsi, o cümlədən yaxın hava döyüşü və digər tapşırıqlar müvəffəqiyyətlə icra olunur.

Təlimlər sentyabrın 17-dək davam edəcək.

Ardı 6-cı səh.



## Azərbaycan strateji əhəmiyyətli məhsulları artıq özü istehsal edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı gəmiqayırma zavodunda “Kəlbəcər” neftdaşıyan tankerin istismara verilməsi mərasimində iştirak edib.**

AZƏRTAC xəbər verir ki, bu neftdaşıyan tankerin tikintisinə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda 2 il əvvəl başlanılıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə tanker “Kəlbəcər” adlandırılıb.

Qeyd edək ki, Prezident İlham Əliyev bir müddət əvvəl işğaldan azad edilən Kəlbəcərdə üçrəngli Azərbaycan bayrağını dalğalandırdı. İndi isə üçrəngli Azərbaycan bayrağı altında beynəlxalq sularda üzəcək “Kəlbəcər” neft tankerinin istismara verilməsi mərasimində iştirak edib. Bunun çox böyük rəmzi mənası var.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Dünyada pandemiyanın davam etməsi və iqtisadi-maliyyə böhranının yaratdığı problemlər fonunda Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafı tam təmin olunur. Bu gün Azərbaycan strateji əhəmiyyətə malik məhsulları artıq özü istehsal edir.

Ardı 2-ci səh.

## Yüksəlişə yol açan gənclər siyasəti

### Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, idman və digər faydalı məşğuliyyətlərə cəlb edilməsi dövlətin prioritet istiqamətidir

**Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan ölkə gənclərinin sağlamlığına və təhsilinə diqqət, onların vətənpərvərlik ruhunda böyüməsinə, intellektual inkişafına qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.**

Qəbul imtahanlarında yüksək bal toplayaraq tələbə adını qazanmış oğlan və qızların Prezident təqaüdünə layiq görülmələri, bir sıra gənclərin dövlət vəsaiti hesabına xarici ölkələrin ali məktəblərində təhsil almaları, mütəxəssis kimi işlə təmin olunmaları buna bariz nümunədir. Peşə meyilli gənclər üçün son illər yaradılan liseylər, məktəblər və burada ödənişsiz sənət öyrənmək, hətta onlara təqaüd verilməsi və ixisaslarına uyğun işlə təmin olunması gündəmdə olan məsələlərdir. Bütün bunlarla yanaşı, ölkə gənclərinin sağlamlığı və idmana olan istəklərinin yüksək səviyyədə reallaşması, beynəlxalq idman yarışlarında iştirakı, ən ümdəsi onların vətənpərvərlik ruhunda böyüməsi dövlətin prioritet istiqamətlərindəndir. Çünki gənclər müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsinə, milli-mənəvi dəyərlərimizi yaşatmaqla ölkəmizin və xalqımızın tərəqqisinə xidmət etməlidirlər.

Ardı 6-cı səh.

## Jurnalistikanın təmizlənməsinə ciddi ehtiyac var

Neçə illər əvvəlin söhbətidir. Bir jurnalın redaksiyasında, eyni otaqda iki həmkar fərqli mövzularda məqalə yazırdıq. Başımız qarışıq olduğundan işə gələndən doğru-dürüst kəlmə kəsməmişdik.

Qapının səsinə başımızı qaldırdıq. Qonşu otaqda yerləşən saytın əməkdaşı olan gənc qız kandarda dayanmışdı. Salamsız-kalamsız respublikada hər kəsin çox sevdiyi əlli altı yaşlı Xalq artistinin vəfat etdiyini söylədi. Baxdıq qız gülür. Çaşıb qaldıq. Həmkarım təəccüblə soruşdu:

- Sən nəyə gülürsən?

- Çünki xəbəri birinci mən yazmışam, - dedi və getdi. Otağa sükut çökdü. Nəhayət, həmkarım fikirli-fikirli dilləndi:

- Nə günlərə qaldıq...

Amma mən indi bilirəm, əslində, işinin peşəkarı olan həmkarım da, mən də o zaman bu günlərə qalacağımızı tam təsəvvür edə bilməmişdik.

Azərbaycan jurnalistikası o günlərə qalıb ki, həmkarlarının yazılarını oxuyan, fikirlərini, məsləhətlərini, yeri gələndə iradlarını bildirənlər azaldı. Jurnalist adı ilə elələri meydana çıxdı ki, başqasının yazdıqlarını köçürüb öz imzasını qoymaqdan belə çəkinmədi. Vəziyyət o həddə çatdı ki, bəzən bir redaksiyanın əməkdaşının yazısında yol verdiyi yanlışlıq digər imzalarla da təkrarlanmağa başladı. Çünki bir-birindən köçürmək adi hal aldı. Jurnalistikanın qızıl qaydalarından biri operativlikdir. Amma bu, məlumatları tələsik, dəqiqləşdirmədən təqdim etməyə əsas vermir.

Ardı 5-ci səh.

## Ağır məğlubiyyətin sağalmaz yaraları, tənəzzüldə olan iqtisadiyyat, kütləvi köç

### Bugünkü Ermənistanı başqa cür təsvir etmək mümkün deyil

İkinci Qarabağ müharibəsindən sonra Ermənistan iqtisadiyyatının tənəzzülü daha da sürətlənib. Bu səbəbdən ölkənin xaricdən maliyyə asılılığı da artır. Yeri gəlmişkən, Ermənistanın dövlət borcu artıq 9 milyard ABŞ dollarını ötüb. Onun 1 milyardı cari ilin yanvarından iyulunadək yaranıb.

Qeyd edək ki, avqustun 23-də Beynəlxalq Valyuta Fondunun Ermənistana 175 milyon dollar məbləğində kreditin verilməsi haqqında qərarı qüvvəyə minib.

Ardı 6-cı səh.



## Dünyanı dəyişən gün - 11 sentyabr

### 20 il əvvəl “Əl-Qaidə”nin ABŞ-a qarşı törətdiyi terror aktları ölkələri bu cür təhlükələrə qarşı mübarizədə birləşməyə məcbur etdi

*Düz 20 il əvvəl, yerli vaxtla saat 08:46-da “American Airlines” şirkətinə məxsus sərnişin təyyarəsi Nyu Yorkda yerləşən Dünya Ticarət Mərkəzinin Şimal qülləsinə çırpıldı. 09:03 radələrində isə Cənub qülləsi analoji hücuma məruz qaldı. Sonuncu hücumdan 40 dəqiqə sonra ABŞ Müdafiə Nazirliyi - Pentaqonun da binası intiharçıların idarə etdikləri təyyarə tərəfindən vuruldu.*

Bax: səh. 6

# Azərbaycan strateji əhəmiyyətli məhsulları artıq özü istehsal edir













*Əvvəli 1-ci səh.*

Bakı gəmiqayırma zavodunda gəmilərin istehsalı, o cümlədən "Kəlbəcər" neftdaşıyan tankerinin inşa olunaraq istismara verilməsi bunun əyani təzahürüdür. Şübhəsiz ki, bu cür mühüm əhəmiyyətə malik istehsalın ölkəmizdə təmin olunması iqtisadi qüdrətimizi və Azərbaycanda icra olunan böyük sosial-iqtisadi infrastruktur layihələrinin ardıcıl şəkildə davam etməsini nümayiş etdirməklə gəmiçiliyin fəaliyyətinin şaxələndirilməsi ilə bağlı görülən işlərin həcmini aydın şəkildə göstərir.

Dövlət başçısı tankerin istifadəyə verilməsini bildirən rəmzi lenti kəsdi.





"Kəlbəcər" neftdaşıyan tankerinin inşası, eyni zamanda, son illərdə yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərin tərkib hissəsidir. Gəmiçiliyin Strateji İnkişaf Planına uyğun olaraq son illərdə 18 gəmi istismara verilib. Bu da ölkəmizin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılmasında, Azərbaycan ərazisindən artan tranzit yükdaşımalarına yaranan tələbatın ödənilməsində və dənizdə neft-qaz layihələrinin uğurla icrasında mühüm rol oynayır. Uzunluğu 141 metr, eni 16.9 metr olan "Kəlbəcər" tankerinin daimi heyəti 15 nəfərdən ibarətdir.

Dedveyti - yükgötürmə qabiliyyəti 7,800 ton olan tankerdə dünyanın aparıcı şirkətlərinin avadanlıqları quraşdırılıb. Tankerin texniki göstəriciləri, xüsusilə suya oturumu digərləri ilə müqayisədə, maksimum yük götürməklə Xəzər hövzəsində nisbətən dayaz limanlara daxil olmağa və Xəzərdən kənara yük daşımasına imkan yaradır.

Yeni tanker Bakı gəmiqayırma zavodunun 2019-cu ildə təhvil verdiyi və hazırda Qara dəniz - Aralıq dənizi hövzələrində üzən "Laçın" tankeri ilə eyni tiplidir. Bu tip 4 tanker sifariş verilib ki, hazırda yerli mütəxəssislər tərəfindən ikisinin tikintisi davam etdirilir. Ümumilikdə zavoda 10 yeni gəminin tikintisi ilə bağlı sifariş verilib ki, onların da artıq altısının, o cümlədən 1 yedək, 3 sərnişin, 1 Ro-Pax tipli gəmi-bərənin və 1 tankerin tikintisi başa çatdırılaraq istismara verilib. Hazırda daha 2 neft tankeri ilə yanaşı, Ro-Pax tipli bir gəmi-bərənin inşası davam etdirilir. Gəmilərin tikintisi əsasən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin mənfəəti hesabına maliyyələşir. Bu da yerli gəmi tikintisi sənayesinin inkişafına töhfə verir.

Hazırda Qara dəniz və Aralıq dənizi hövzələrində Azərbaycan bayrağı altında 8 quru yük gəmisi və 3 tanker olmaqla 11 gəmi istismar olunur. Heyətləri yalnız yerli mütəxəssislərdən ibarət olan bu gəmilər tanınmış dövlət-mədəniyyət xadimlərimizin, rayon və şəhərlərimizin adlarını daşıyır. Bu ilin sonunadək "Prezident Heydər Əliyev", "Kəlbəcər" və "Şuşa" tankerlərinin də Xəzərdən kənarda, o cümlədən Baltik və Şimal dənizlərinə çıxışı təmin olunacaq.

## Mikayıl Abdullayevin 100 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2021-ci ilin dekabr ayında Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, SSRİ və Azərbaycan Respublikasının Xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının akademiki, Dövlət Mükafatı laureatı, professor Mikayıl Hüseyn oğlu Abdullayevin anadan olmasının 100 ili tamam olur.

Mikayıl Abdullayev parlaq ənənələrə malik Azərbaycan rəssamlıq məktəbinin böyük simalarındandır. Onun təsviri sənətin ən müxtəlif sahələrini əhatə edən koloritli yaradıcılığı xalqımızın mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutur. Sənətkar çoxsaylı tematik lövhə, mənzərə və natürmortlarında doğma təbiətin gözəlliklərini, insanların quruculuq əzmini və mənəvi zənginliyi incə rəng çalarları ilə tərənnüm etmiş, dahi Nizaminin "Xəmsə"sinin motivləri əsasında monumental rəngkarlığın bənzərsiz nümunələrini yaratmışdır. Azərbaycan ədəbiyyatına dərin məhəbbətlə ərsəyə gətirdiyi silsilə portretlər və klassik ədəbi əsərlərə çəkdiyi parlaq illüstrasiyalar rəssamın Şərq və Qərb incəsənətinin mütərəqqi ənənələrinin qovuşuğunda formalaşdırdığı yeni dəst-xəttin dolğun ifadəsidir. Dünyanın nüfuzlu sərgi salonlarında, muzey və qalereyalarında uğurla nümayiş etdirilən əsərləri Mikayıl Abdullayevi fitri istedad sahibi kimi tanıtmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, müasir Azərbaycan təsviri sənətinin inkişafında və geniş şöhrət qazanmasında mühüm xidmətlər göstərmiş görkəmli fırça ustası Mikayıl Abdullayevin anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Rəssamlar İttifaqının təkliflərini nəzərə almaqla, Xalq rəssamı Mikayıl Abdullayevin 100 illik yubileyi ilə əlaqədar tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 sentyabr 2021-ci il*

## Ə.Səncərin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının beynəlxalq humanitar əlaqələrinin inkişafında xidmətlərinə görə Əziz Səncər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 sentyabr 2021-ci il*

## Dövlət Komissiyası 2020-ci il sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzünün nəticələrinin aradan qaldırılmasına dair məsələləri müzakirə edib



**Sentyabrın 10-da Baş nazir Əli Əsədovun sədrliyi ilə 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılmasının təmin edilməsi üzrə Dövlət Komissiyasının növbəti genişləndirilmiş iclası keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda ötən vaxt ərzində görülmüş işlərin vəziyyətinə dair məruzələr dinlənilib, yerdə qalan işlərə dair müzakirələr aparılıb və qısa müddət ərzində tam başa çatdırılmasına dair müvafiq tapşırıqlar verilib.

# Baş nazir Əli Əsədov Türk Şurasının nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov sentyabrın 10-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ötən müddət ərzində Türk Şurasının güclənərək vacib beynəlxalq quruma çevrildiyi, dünya miqyasında nüfuzunun artdığı məmnuniyyətlə qeyd edilib. Azərbaycanın Türk Şurasına üzv ölkələrlə həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq etdiyi bildirilib.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə, həmçinin Vətən müharibəsi zamanı ölkəmizə verilən siyasi-mənəvi dəstəyə görə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına və təşkilata üzv dövlətlərə minnətdarlıq ifadə olunub. Müharibənin ilk günlərindən qardaş Türkiyə Respublikasının birmənalı dəstəyinin əhəmiyyəti xüsusi vurğulanıb. Azərbaycan torpaqlarının işğaldan azad edilməsilə açılan imkanlara toxunulub, Zəngəzur dəhlizinin əhəmiyyəti qeyd edilib. Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə ötən il Türk Şurasının koronavirus pandemiyası ilə mübarizəyə həsr olunmuş fövqəladə Zirvə görüşü türkdilli dövlətlərin həmrəyliyinin növbəti bariz göstəricisi kimi dəyərləndirilib.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının iqtisadiyyat nazirlərinin 10-cu iclasının və Türk Biznes Forumunun Bakıda keçirilməsi yüksək qiymətləndirilib. Forumun Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasına həsr olunmasının xüsusi əhəmiyyət kəsb etdiyi bildirilib. Tədbirlər çərçivəsində qəbul olunmuş qərarların və imzalanmış sənədlərin üzv ölkələr arasında müxtəlif sahələrdə, xüsusilə də iqtisadi-ticari və investisiya sahələrində əməkdaşlığın genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

# Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının iqtisadiyyat nazirlərinin görüşü keçirilib




Sentyabrın 10-da Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv dövlətlərin iqtisadiyyat nazirlərinin 10-cu görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla anaraq abidəsi önünə əklil qoyublar. Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının xatirəsini anıb, həmçinin "Türk Şəhidliyi"ni ziyarət ediblər.

Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Macarıstan nümayəndələrinin iştirak etdiyi TDƏŞ dövlətlərinin iqtisadiyyat nazirlərinin 10-cu görüşünü açan Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizin TDƏŞ-in iqtisadiyyat nazirlərinin 10-cu iclasına evsahibliyi etməsindən məmnunluğunu bildirib, türkdilli dövlətlərin bütün sahələrdə uğurla əməkdaşlıq etdiyini vurğulayaraq milli və regional iqtisadiyyatın dəstəklənməsi istiqamətində tərəfdaşlığın və iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Qeyd edilib ki, Azərbaycanda Türk Şurasına üzv ölkələrlə ticarət, investisiya əməkdaşlığı, iş adamları arasında əlaqələrə böyük önəm verilir. Azərbaycanın TDƏŞ-ə üzv ölkələr və Macarıstanla ticarət dövriyyəsinin həcmi 2,6 milyard dollar olmaqla ölkəmizin xarici ticarət dövriyyəsindəki payı təxminən 15 faiz təşkil edir. Təqdirəlayiq haldır ki, 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2021-ci ilin yanvar-iyul aylarında Türk Şurasının üzv dövlətləri və Macarıstana qeyri-neft ixracı 75 faiz artıb.

Ölkələrarası iqtisadi tərəfdaşlığın gücləndirilməsi perspektivlərinə dair fikirlərini bölüşən iqtisadiyyat naziri qlobal iqtisadiyyatın yenidən artım dönəminə keçməsi üçün beynəlxalq əməkdaşlığın, investisiyalar, bilik və texnologiya mübadiləsinin, ticarət əlaqələrinin möhkəmləndirilməsinin vacibliyini vurğulayıb. Görüşdə Türk Şurasına üzv ölkələr arasında ticarət və investisiya əlaqələrinə dair tədqiqat sənədinin, Azərbaycanın dəstəyi ilə "Türk Ticarət Evi"nin konsepsiyasının hazırlandığı, Türk Ticarət və Sənaye Palatasının fəaliyyətinin təşviqi, Türk İnvestisiya Fondunun yaradılması istiqamətində mühüm irəliləyişlər əldə olunduğu diqqətə çatdırılıb.

Mikayıl Cabbarov təşkilata üzv dövlətlərin qarşılıqlı investisiya yatırımı üçün böyük imkanlarının olduğunu və bu imkanlardan yararlanmağı, tranzit potensialını reallaşdırmağı təklif edib. Nazir həmçinin TDƏŞ-ə üzv ölkələri Azərbaycanda yaradılan Ələt Azad İqtisadi Zonasının, sənaye zonalarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarından faydalanmağa çağırıb.

Tədbirdə Azərbaycan iqtisadiyyatı, 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər barədə məlumat verilib, Azərbaycanın təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinə çevrilməsinin qarşıya hədəf kimi qoyulduğu qeyd olunub. Bildirilib ki, ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadə potensialı əhəmiyyətli dərəcədə böyükdür və bu sahəyə özəl sərmayələrin cəlb edilməsi və irimiqyaslı layihələrin icrası istiqamətində işlər görülür.

Türkiyə və Azərbaycan arasında iqtisadi əlaqələrə toxunan Mikayıl Cabbarov qardaş ölkə ilə imzalanan Preferensial Ticarət Sazişinin ticarət əlaqələrinin yeni müstəvidə genişləndirilməsinə və ölkələrimizdə rəqəmsallaşma prosesinin inkişafına təkan verəcəyini qeyd edib.

TDƏŞ-in Baş katibi Bağdad Amreyev çıxışında bildirib ki, Türk Şurası ölkələrimiz arasında əməkdaşlığın daha da gücləndirilməsinə, iqtisadi, mədəni və digər sahələrdə tərəfdaşlığın genişləndirilməsinə önəmli töhfələr verir. Baş katib Bakıda keçirilən TDƏŞ-ə üzv dövlətlərin iqtisadiyyat nazirlərinin görüşünün türkdilli ölkələr arasında tərəfdaşlığın inkişafında əhəmiyyətini vurğulayıb.

Türkiyənin ticarət naziri Mehmet Muş, Qazaxıstanın ticarət və inteqrasiya naziri Baxıt Sultanov, Özbəkistanın investisiyalar və xarici ticarət nazirinin birinci müavini Aziz Voitov, Qırğızıstanın iqtisadiyyat və maliyyə naziri Akylbek Zhaparov, Macarıstanın Təhlükəsizlik Siyasəti üzrə dövlət katibi Peter Staroi çıxışlarında türkdilli ölkələr arasında əlaqələrin inkişafı üçün böyük potensialın olduğunu vurğulayıb, "yaşıl iqtisadiyyat", rəqəmsal texnologiyalar və digər sahələrdə əməkdaşlıq perspektivlərinə, təmsil etdikləri ölkələrin iqtisadiyyatına dair məlumat veriblər.

Görüşdə TDƏŞ-ə üzv ölkələrin dövlət başçılarının iştirakı ilə keçiriləcək Zirvə toplantısının iqtisadi gündəliyi, ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi, birgə iqtisadi layihələrin həyata keçirilməsinə dair imkanların araşdırılması barədə müzakirələr aparılıb.

Tədbir çərçivəsində TDƏŞ-ə üzv ölkələrin dövlət orqanları arasında Müxtəlif İqtisadi Zonalar sahəsində məlumat və təcrübə mübadiləsi haqqında anlaşma memorandumu imzalanıb. Sənəd təşkilat daxilində ümumi rəqəmsal platformanın yaradılmasına töhfə verəcək, zonaların strateji inkişafı üçün məlumatların mübadiləsi və məsləhətləşmələrin aparılması imkanlarını yaratmaqla, xarici investisiyaların cəlb edilməsi istiqamətində uğurlu iqtisadi model tətbiq etməyə şərait yaradacaq.

Sonra TDƏŞ ölkələri iqtisadiyyat nazirlərinin 10-cu görüşü çərçivəsində türkdilli ölkələrdə aktiv fəaliyyət göstərmiş şirkətlərin mükafatlandırılması mərasimi keçirilib."SOCAR Türkiye Enerji A.Ş." (neft və qaz), "Cengiz İnşaat SanayiveTicaret" A.Ş (tikinti), "Aktobe Rail and Section Works LLP" (dəmiryolu tikintisi üçün avadanlıqların istehsalı), "Sam-Antep-Gilam Ltd" (xalça və xalça məhsullarının istehsalı), "Artezian" MMC (təbii süfrə suyu və milli içkilər istehsalı) biznes mükafatı ilə təltif ediliblər.

Qeyd edək ki, ölkələrimiz arasında sahibkarlıq fəaliyyətinin təşviqi məqsədi daşıyan tədbir artıq ikinci dəfədir təşkil olunur.

# Qarabağın bərpasına həsr olunmuş biznes forum

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) iqtisadiyyat nazirlərinin görüşü çərçivəsində biznes forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasına həsr olunmuş biznes forumunun açılışında iqtisadiyyat naziri Mikayıl Cabbarov türkdilli dövlətlərlə qarşılıqlı maraqlara əsaslanan iqtisadi münasibətlərin keyfiyyətcə yeni müstəvidə daha da genişləndiyini deyib. Bildirilib ki, TDƏŞ-ə üzv dövlətlərlə uğurlu ticarət-investisiya əməkdaşlığı həyata keçirilir. 1995-ci ildən 2021-ci ilin 3 ayınadək olan TDƏŞ üzvü olan ölkələr Azərbaycan iqtisadiyyatına 13,5 milyard ABŞ dolları həcmində investisiya qoyub. Azərbaycan isə üzv ölkələrin iqtisadiyyatına 18,6 milyard ABŞ dolları sərmayə yatırıb.

İşğaldan azad olunmuş ərazilərimizə Böyük Qayıdış, bu ərazilərdə reallaşdırılacaq "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarından danışan Mikayıl Cabbarov Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin qurulmasındakı maneənin aradan qalxması nəticəsində region ölkələrinin faydalana biləcəyi yeni avtomobil və dəmir yolu şəbəkələrinin formalaşdırılması imkanı yarandığını, hazırda Zəngəzur dəhlizinin fəaliyyəti istiqamətində aktiv işlər aparıldığını diqqətə çatdırıb. Nazir əlavə edib ki, bu potensialın reallaşdırılması yeni nəqliyyat marşrutlarının fəaliyyətə başlamasına gətirib çıxaracaq, regional əməkdaşlığı və sabitliyi möhkəmləndirəcək.

İqtisadiyyat naziri 44 günlük Vətən müharibəsi dövründə Türk Şurasının Azərbaycana böyük dəstək verdiyini vurğulayıb. Qeyd edilib ki, azad edilmiş ərazilərimizin bərpasında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin şirkətlərinin böyük marağı və bu şərəfli işdə Azərbaycanın yanında olmaq istəkləri yüksək qiymətləndirilir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasına həsr olunmuş biznes forumunda tikinti, nəqliyyat-logistika, kənd təsərrüfatı, qida sənayesi, bərpa olunan enerji, yüngül sənaye, turizm, mədənçilik və digər sahələrdə fəaliyyət göstərən çoxsaylı iş adamının iştirakı türkdilli ölkələrin dostluq və qardaşlığının daha bir nümunəsidir.

Türk Şurasının Baş katibi Bağdad Amreyev TDƏŞ-in üzv ölkələrin iş adamları arasında əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb, təşkilatın fəaliyyəti, görülən işlər, türkdilli ölkələr arasında əlaqələrin dərinləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasının türkdilli dövlətlərin ümumi işi olduğunu və Qarabağın türk dünyasının inkişaf etmiş bölgələrindən birinə çevriləcəyini vurğulayıb.

Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Macarıstanın nümayəndə heyətlərinin rəhbərləri və digərləri çıxışlarında sahibkarlıq, investisiya, "yaşıl" iqtisadiyyat, rəqəmsal texnologiyalar, ticarət və digər sahələrdə əməkdaşlığın inkişafı barədə fikirlərini bölüşüb, təmsil etdikləri ölkələrin şirkətlərinin Qarabağın bərpası və yenidən qurulmasında iştirakda marağını ifadə ediblər.

Tədbir çərçivəsində Qarabağın bərpası və yenidən qurulması istiqamətində görüləcək işlər barədə təqdimat keçirilib.

Sonra Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə Qazaxıstanın "QazTrade" Ticarət Siyasətinin İnkişafı Mərkəzi arasında anlaşma memorandumu imzalanıb. Sənəd xarici ticarət fəaliyyətinin təşkili və stimulaşdırılması sahəsində təcrübə mübadiləsi məsələlərini ehtiva edir.

Forum işini ikitərəfli görüşlərlə davam etdirib.

# Qazaxıstan Parlamenti Məclisinin komitə sədri Milli Məclisdə olub



Sentyabrın 10-da Milli Məclis Sədrinin müavini, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Adil Əliyev ölkəmizdə səfərdə olan Qazaxıstan Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspanla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qonağı salamlayan Milli Məclis Sədrinin müavini Azərbaycan ilə Qazaxıstan arasında çoxəsrlik tarixə malik dostluq əlaqələrinin olduğunu deyib. Vurğulayıb ki, bu gün ölkələrimizin ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, müxtəlif sahələri əhatə edən çoxşaxəli əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etməsi təqdirəlayiqdir. Dövlət başçıları səviyyəsində münasibətlərin inkişafına xüsusi əhəmiyyət verilməsi, yüksəksəviyyəli rəsmi və işgüzar səfərlərin həyata keçirilməsi müxtəlif sahələrdə mühüm addımların atılmasını və müsbət nəticələrin əldə olunmasını şərtləndirir. Ölkələrimizin qlobal arenada, beynəlxalq təşkilatlar səviyyəsində milli maraqlara dair bütün məsələlərdə bir-birini dəstəkləməsi də pozitiv hal kimi xüsusi önəm daşıyır.

Milli Məclis Sədrinin müavini qeyd edib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun şücaəti sayəsində Azərbaycan 44 günlük Vətən müharibəsində tarixi Qələbə qazanaraq 30 illik erməni işğalına son qoyub. Ölkəmiz ərazi bütövlüyünü bərpa edib və artıq münaqişə tarixə qovuşub. O bildirib ki, Qazaxıstan Parlamenti Məclisinin nümayəndə heyəti işğaldan azad olunmuş Şuşa şəhərinə - Azərbaycanın mədəniyyət paytaxtına səfər zamanı reallıqların şahidi olacaq.

Qonaqlara məlumat verilib ki, bu gün Azərbaycan dövləti ermənilər tərəfindən dağıdılmış Şuşada və digər ərazilərimizdə geniş bərpa-quruculuq işləri aparır, o cümlədən erməni vandalizminə məruz qalmış tarixi, dini və mədəni abidələr bərpa olunur.

Yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən Qazaxıstan Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspan Azərbaycanın 44 günlük müharibə nəticəsində torpaqlarını işğaldan azad etməsi münasibətilə təbriklərini çatdırıb. Azərbaycanın əldə etdiyi nailiyyətlərdən danışan qonaq tezliklə azad olunmuş torpaqların bərpa olunacağına əminliyini ifadə edib. Bildirib ki, qısa müddət ərzində Füzuli aeroportunun istifadəyə verilməsi bunu deməyə əsas verir.

Söhbət zamanı iki ölkənin parlamentləri arasında münasibətlərin daha da inkişaf etdirilməsinin, deputatların qarşılıqlı səfərlərinin sayının artırılmasının vacibliyi qeyd olunub.

Görüşdə Milli Məclisin deputatları, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Etibar Əliyev, Anar Məmmədov, Naqif Həmzəyev, Sadiq Qurbanov, Fatma Yıldırım, Qazaxıstan parlamentinin deputatları, Qazaxıstanın ölkəmizdəki səfiri Serjan Abdıkərimov və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycan-Qazaxıstan əməkdaşlığı yüksələn xətlə inkişaf edir

**Sentyabrın 10-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və komitə üzvləri ölkəmizə səfərə gələn Qazaxıstan Respublikası Parlament Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Səməd Seyidov ölkələrimiz arasında tarixən formalaşmış əlaqələrdən söz açıb. Azərbaycan-Qazaxıstan münasibətlərinin inkişafında parlamentlərimiz arasındakı əməkdaşlığın mühüm rolundan danışıb. Milli Məclisin Sədri Sahibə Qafarovanın Vyanada Qazaxıstan Parlament Məclisinin sədri Nurlan Niqmatulinlə görüşünün əhəmiyyətini qeyd edib. Xalqlarımız arasında dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi vacibliyini diqqətə çatdırıb. Qonaqlara Şuşada və işğaldan azad olunmuş digər bölgələrimizdə aparılan quruculuq işləri barədə məlumat verib. Füzulidə hava limanının tikilib istifadəyə verildiyini, Ağdam şəhərinin minalardan tamamilə təmizləndiyini bildirib.

Nümayəndə heyətinin rəhbəri, Qazaxıstan Parlament Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspan tarixi ədalətin bərpası, 44 günlük Vətən müharibəsində qazanılan böyük Zəfər münasibətilə xalqımıza təbriklərini çatdırıb. Azərbaycanın möhtəşəm Qələbəsini və ərazi bütövlüyünü dəstəklədiklərini vurğulayıb. Şuşanı, işğaldan azad olunmuş Qarabağı görmək arzusunda olduqlarını bildirib. Qarabağın yenidən qurulmasında Qazaxıstan şirkətlərinin də iştirak etmək arzusunu ifadə edib. Bölgədə inşa olunacaq nəqliyyat dəhlizlərinin qlobal əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Görüşdə çıxış edən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva və deputat Asim Mollazadə əməkdaşlığın genişləndirilməsi perspektivlərinə toxunublar.

Azərbaycanın qələbəsinə ürəkdən sevindiklərini bildirən Qazaxıstan parlamentinin deputatları Darxan Mınbay və Abilfas Xamedov bölgədə formalaşan yeni reallığın parlamentlərarası əlaqələrin inkişafına da təkan verəcəyinə əminlik ifadə ediblər. Qonaqlar bildiriblər ki, 44 günlük Vətən müharibəsində qazanılan Zəfər və qələbədən sonrakı dövrdə işğaldan azad olunmuş ərazilərdə aparılan abadlıq, tikinti-quruculuq işləri Azərbaycanın qüdrətinin göstəricisidir.

Görüşdə Milli Məclisin deputatları Tural Gəncəliyev, Nəsib Məhəməliyev, Sevil Mikayılova, Kamran Bayramov, Qazaxıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkərimov və səfirliyin müşaviri Jandos Nurmaxambetov, nümayəndə heyətinin üzvləri Amerxan Rahimjanov, Almas Kulmaqanbetov iştirak ediblər.

# Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib

Sentyabrın 10-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib. İclası açan komitənin sədri Musa Quliyev gündəliyin birinci məsələsi olan 2021-ci il yaz və növbədənkənar sessiyaları ərzində Əmək və sosial siyasət komitəsində görülən işlərin hesabatını təqdim edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, M.Quliyev bildirib ki, şəhid ailələri, müharibə əlilləri və qazilərin problemləri 2021-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə də parlamentin diqqət mərkəzində olub. Hesabat dövründə komitə üzvləri karantin şərtləri daxilində şəhid ailələri və qazilərlə görüşlər keçiriblər, vətəndaşları qəbul ediblər. Komitəyə 555 sənəd, o cümlədən vətəndaşlardan 458 ərizə daxil olub. Qaldırılan problemlər araşdırılıb, müvafiq tədbirlər görülüb. Hesabat dövründə komitənin 21 iclası keçirilib və iclaslarda 25 qanun layihəsi müzakirə edilib.

Sonra Musa Quliyev Əmək və sosial siyasət komitəsinin 2021-ci il üçün payız sessiyası dövrünə dair iş planı haqqında məlumat verib. Bildirilib ki, iş planında nəzərdə tutulan "Turizm haqqında" qanun ötən sessiyadan hazırdır, lakin pandemiya şəraiti ilə bağlı müəyyən düzəlişlərə ehtiyac var. İş planına salınmış "Xeyriyyəçilik fəaliyyəti haqqında" qanun layihəsinə isə işçi qrupunda baxılıb. Qanun layihəsinin hazırlanmasında müxtəlif ölkələrin, o cümlədən Heydər Əliyev Fondunun və "YAŞAT" Fondunun təcrübəsi öyrənilib. Bildirilib ki, qarşıdakı sessiyada, həmçinin şəhid ailələrinə və qazilərə dəstəklə bağlı dinləmələrin keçirilməsi də nəzərdə tutulub.

Məsələ ilə bağlı çıxış edən Əmək və sosial siyasət komitəsi sədrinin müavini Məlahət İbrahimqızı, komitə üzvləri Jalə Əliyeva, Aqil Məmmədov, İlham Məmmədov, Arzu Nağıyev və Sevinc Hüseynova yaz və növbədənkənar sessiyaların yekunları və payız sessiyasının işlər planı barədə fikirlərini bildiriblər.

Sonra gündəlikdəki qanun layihələrinə baxılıb. Musa Quliyev bildirib ki, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində "Məşğulluq haqqında" qanunda nəzərdə tutulan həssas qrupların siyahısına şəhid ailəsinin üzvləri də aid edilmiş, peşə hazırlığının, işsiz şəxslərin özünüməşğulluğunun və sosial iş yerlərinin təşkili zamanı onlara da digər həssas qruplarla birlikdə üstünlük verilməsi təsbit edilmişdir. Bu sənəd də həmin qanuna uyğunlaşdırma məqsədilə hazırlanıb.

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi isə "Sosial müavinətlər haqqında" qanuna və 2020-ci il 30 dekabr tarixli 1223 saylı fərmana uyğun hazırlanıb. Həmin qanunvericilik aktlarında təqaüdlə müavinətlər birləşdirilərək təqaüdün məbləği 300 manatdan 500 manatadək qaldırılıb. Həmçinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar tam dövlət təminatına alındıqları üçün müvafiq dəyişikliklər təklif olunub.

Gündəliyin axırıncı məsələsi olan Mülki Məcəllədə, "Müflisləşmə və iflas haqqında", "İcra haqqında", "Banklar haqqında", "Teatr və teatr fəaliyyəti haqqında", "Sığorta fəaliyyəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Musa Quliyev bildirib ki, dəyişiklik icbari tibbi sığorta sisteminə keçidlə əlaqədardır.

Müzakirələr zamanı deputatlardan Aqil Məmmədov, Əvəz Ələkbərov və Sevinc Hüseynova qanun layihələri ilə bağlı çıxış edərək rəy və təkliflərini səsləndiriblər. Sonra komitə üzvləri hər üç qanun layihəsini Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

İclasda komitə üzvləri Ziyad Səmədzadə, Vüqar Bayramov, Rauf Əliyev, Səttar Möhbalıyev və digər rəsmi şəxslər də iştirak ediblər.

# Azərbaycanın müdafiə naziri Rusiya sülhməramlılarının komandanı ilə görüşüb

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin komandanı vəzifəsini başa vuran general-leytenant Rüstəm Muradov ilə görüşüb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sonra general-leytenant R.Muradov Rusiya sülhməramlı kontingentinin komandanı vəzifəsinə yeni təyin olunan general-mayor Mixail Kosobokovu müdafiə nazirinə təqdim edib.

Görüşdə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki son vəziyyət müzakirə olunub.

# Polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışı keçirilib

Sentyabrın 10-da daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında və Əlahiddə Çevik Polis Alayında vakant sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Kütləvi informasiya vasitələrində, o cümlədən nazirliyin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, quruma onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 169 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Qeyd edək ki, onlardan 65 nəfəri torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsinin iştirakçıları olub.

Gənclərlə görüşdə çıxış edən general-polkovnik V.Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən mütərəqqi gənclər siyasəti gənc nəslin inkişafı, bilik və bacarıqlarını realizə etmələri üçün şərait yaratmaqla yanaşı, onları vətənpərvər ruhda formalaşdırıb. Azərbaycanlı gənclər öz vətənpərvərliklərini, qəhrəmanlıqlarını 44 günlük Vətən müharibəsində bir daha sübut etdi.

Nazir daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə polis adını və şərəfini daim uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini artırmalarını, öz üzərlərində səylə çalışmalarını və vətəndaş məmnunluğunun təmininə layiqli töhfələrini vermələrini tövsiyə edib.

# Nazir Kəmaləddin Heydərov Rusiyanın fövqəladə hallar naziri ilə vida mərasimində iştirak edib



Sentyabrın 8-də faciəli şəkildə həlak olmuş Rusiyanın mülki müdafiə, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə naziri ordu generalı Yevgeni Ziniçev ilə Rusiya Fövqəladə Hallar Nazirliyinin Moskvadakı Böhran Vəziyyətlərində Milli İdarəetmə Mərkəzinin inzibati binasında vida mərasimi keçirilib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sentyabrın 10-da təşkil olunan vida mərasimində Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov iştirak edib, mərhumun xatirəsinə ehtiramını bildirib.

Nazir mərasimdə iştirak edən Y.Ziniçevin ailə üzvlərinə, yaxınlarına və Rusiya Fövqəladə Hallar Nazirliyinin kollektivinə başsağlığı verib.

# Gəncədə Vətən müharibəsi zamanı zərər görmüş evlərdə aparılan bərpa işləri davam edir

Gəncə Şəhər İcra Hakimiyyətində Vətən müharibəsi zamanı raket zərbəsindən zərər görmüş evlərdə aparılan bərpa və təmir-tikinti işlərinin gedişatı növbəti dəfə müzakirə olunub.



AZƏRTAC xəbər verir ki, iclasda Gəncə Şəhər İcra Hakimiyyətinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ərazi-Tikinti Planlaşdırma Mərkəzinin, podratçı şirkətlərin rəhbər şəxsləri və Gəncə Şəhər İcra Hakimiyyəti başçısı yanında İctimai Şuranın üzvləri iştirak ediblər.

İclasda zərərçəkmiş sakinlərin qaldırdıqları və onları narahat edən problemlərin həlli istiqamətində müvafiq tapşırıq və tövsiyələr verilib.

Qeyd edək ki, Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində onlarla fərdi yaşayış evi və mənzillər tamamilə dağılıb. Cari ilin əvvəlindən başlayaraq ölkə rəhbərliyinin tapşırığına əsasən dəymiş ziyanın aradan qaldırılması istiqamətində işlərə başlanılıb. Artıq 6 aydan çoxdur ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Gəncə şəhərində bərpa və təmir-tikinti işləri davam etdirilir.

# Son sutkada Azərbaycanda koronavirus infeksiyasına 2508 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 2508 yoluxma faktı qeydə alınıb, 4076 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 37 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 455 min 44 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 401 min 300 nəfər müalicə olunaraq sağalıb, 6 min 31 nəfər vəfat edib. Aktiv xəstə sayı 47 min 713 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 14 min 672, dünənə qədər isə ümumilikdə 4 milyon 623 min 245 test icra olunub.




# Azərbaycanda COVID-19 infeksiyası əleyhinə peyvəndin hər iki dozasını qəbul edənlərin sayı 3 milyonu ötüb

**Sentyabrın 10-da Azərbaycanda 62 min 584 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 23 min 160, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 39 min 424 nəfər təşkil edib.

Azərbaycanda dünənə qədər vurulan vaksinlərin ümumi sayı 7 milyon 493 min 34, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 465 min 644, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 3 milyon 27 min 390 nəfər təşkil edir.




# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

**Sentyabrın 10-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin iclası keçirilib.**



YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi barədə məlumat verib.

İclasda ilk olaraq Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının, Gənclər Birliyinin, Mərkəzi Aparatının və yerli təşkilatlarının əsasnamələrinin təsdiq edilməsi haqqında məsələyə baxılıb. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu barədə məlumat verdikdən sonra hər bir əsasnamə ayrı-ayrılıqda müzakirəyə çıxarılaraq təsdiq olunub.

Sonra Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının tərkibinə kooptasiya yolu ilə yeni üzvlərin daxil edilməsinə baxılıb və Hacıbala Abutalıbov, Şəmsəddin Xanbabayev və Tağı Əhmədovun YAP Veteranlar Şurasına üzv qəbul edilməsi haqqında qərar qəbul edilib.

İclasda növbəti məsələ isə Bakı şəhərinin rayonları üzrə Yeni Azərbaycan Partiyasının yerli təşkilatlarının sədrlərinin vəzifəyə təyin edilməsi olub. Qeyd edilib ki, Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsinə əsasən partiyanın yerli təşkilatları yeni prinsiplər əsasında formalaşdırılmalıdır. Eyni zamanda, Nizamnaməyə əsasən partiya strukturunda vəzifə tutan şəxs digər vəzifə daşıya bilməz. Bütün bu tələblərdən irəli gələrək YAP-ın yerli təşkilatlarına yeni sədrlərin seçilməsi ehtiyacı yaranıb. İclasda məsələ müzakirə olunub və Nağıyev Muxtar Teymur oğlu Səbail rayon təşkilatına, Süleymanov Azər Abdul oğlu Nəsimi rayon təşkilatına, Nəbiyev Bəxtiyar Eyvaz oğlu Yasamal rayon təşkilatına, Vəliyev Samir Əhməd oğlu Nərimanov rayon təşkilatına, Rəhimzadə Vüqar Gəncəli oğlu Xətai rayon təşkilatına, Vəlibəyov Ramil Vaqif oğlu Nizami rayon təşkilatına, İsmayılov Vüsar Qəşəm oğlu Binəqədi rayon təşkilatına, Vəliyev Misirxan İzzət oğlu Sabunçu rayon təşkilatına, Seyidov Vüqar Səməndər oğlu Suraxanı rayon təşkilatına, Əhmədov Namiq Məcid oğlu Xəzər rayon təşkilatına, Əliyev Qafar Məmməd oğlu Qaradağ rayon təşkilatına, Abasov Emil Tofiq oğlu Pirallahı rayon təşkilatına sədr təyin olunublar. İclasda sonra Yeni Azərbaycan Partiyasının təsis etdiyi "Yeni Azərbaycan" qəzetinə yeni baş redaktorun təyin edilməsi məsələsi müzakirə olunub. Qeyd olunub ki, uzun illər "Yeni Azərbaycan" qəzetinin baş redaktoru vəzifəsində çalışmış Milli Məclisin deputatı Hikmət Məmmədov YAP-ın Mərkəzi Aparatı ilə Milli Məclisdə təmsil olunan deputat qrupu arasında əlaqələndirici müəyyən edilib. Buna görə də "Yeni Azərbaycan" qəzetinə yeni baş redaktorun təyin olunması zərurəti yaranıb.

Müzakirələrdən sonra Alqış Musayevin "Yeni Azərbaycan" qəzetinin baş redaktoru vəzifəsinə təyin olunması haqqında qərar qəbul olunub.

İclasda Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bir sıra məsələlərə də baxılıb və müvafiq qərarlar qəbul edilib.

İclasda həmçinin Yeni Azərbaycan Partiyasının VII Qurultayından sonra YAP üzvlüyündən xaric edilmiş şəxslər haqqında YAP rayon (şəhər) təşkilatlarının qərarları təsdiqlənib və YAP Binəqədi rayon təşkilatının sabiq sədri Ramiz Göyuşovun geniş ictimai qınağa səbəb olmuş hərəkəti ilə bağlı məsələ müzakirə olunub.

Məsələ ilə bağlı İdarə Heyətinin üzvlərindən Azər Badamov, Elmar Qasımov, Hikmət Məmmədov, Musa Quliyev, Bayram Aslanov, Bahar Muradova, Tofiq Cahangirov, Eldar İbrahimov, Anar İsgəndərov və Rəşad Mahmudov çıxış edərək qeyd ediblər ki, sosial şəbəkələrdə yayılmış videogörüntülərdə Ramiz Göyüşovun etikadan kənar, əxlaqa zidd hərəkəti YAP üzvləri tərəfindən dərin təəssüf hissi ilə qarşılanıb, eyni zamanda, cəmiyyətimizdə hiddətlə qınanılıb. Bildirilib ki, onun Azərbaycan ziyalısı adına layiq olmayan, qeyri-etik, milli-mənəvi dəyərlərdən uzaq davranışı yolverilməzdir. Ramiz Göyüşov bu qeyri-etik davranışı ilə partiyanın nüfuzuna xələl gətirdiyinə görə partiya sıralarından xaric edilməlidir.

İdarə Heyəti edilən çıxışlarda səslənən fikirləri və irəli sürülən təklifləri nəzərə alaraq Ramiz Göyüşovun YAP sıralarından xaric olunması barədə yekdil qərar qəbul edib.

Sonda cari məsələlər müzakirə olunub.

# Azərbaycanın aparıcı gənclər təşkilatlarının nümayəndələri Şuşada səfərdə olublar








Sentyabrın 10-da Azərbaycanın aparıcı gənclər təşkilatlarının nümayəndələri Şuşa şəhərinə səfər ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Gənclər Fondunun və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) birgə reallaşdırdığı səfər çərçivəsində 30 gənclər təşkilatının 50-dən çox nümayəndəsi Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada tarixi-mədəni abidələrimiz, erməni vandalizminin acı nəticələri, qədim şəhərin görkəmli yerləri, eləcə də görülən abadlıq-quruculuq işləri ilə tanış olublar.

Səfər çərçivəsində nümayəndə heyəti tərəfindən Cıdır düzü, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Qala divarları, Gəncə qapısı və bir sıra tarixi-mədəni abidələr, həmçinin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığı ilə Bakıdan Şuşaya gətirilən və qayıdışları Zəfər simvolu hesab edilən Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin və Bülbülün büstləri ziyarət edilib.

Gənclər 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi Qələbə uğrunda canından keçən qəhrəman şəhidlərimizin xatirələrini dərin ehtiramla yad ediblər.

Səfərin iştirakçıları Prezident İlham Əliyevin Cıdır düzündə xalqa müraciəti zamanı söylədiyi "Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq" sözlərini xatırlayaraq, ölkə gənclərinin hər zaman dövlət başçısının ətrafında sıx birləşdiklərini, işğaldan azad olunmuş torpaqlarımızın dirçəlməsi üçün Azərbaycanın hər bir gəncinin səfərbər olduğunu vurğulayıblar.

Şuşaya səfər zamanı 44 günlük Vətən müharibəsi dövründə gənclər təşkilatlarının fəaliyyəti və Qarabağa qayıdışla bağlı qarşıdakı fəaliyyət planları müzakirə olunub.

Xatırladaq ki, bundan əvvəl gənclər təşkilatlarının nümayəndələri Gənclər Fondunun təşkilatçılığı ilə Ağdam şəhərinə səfər ediblər.



# İlham Əliyev qətiyyətinin təcəssümü

**Hazırda işğaldan azad olunmuş bütün torpaqlarımızda bərpa və yenidənqurma işləri həyata keçirilməkdədir. Hər ötən gün icra olunan infrastruktur layihələrinin sayı artır, Qarabağ və Şərqi Zəngəzur sürətlə simasını dəyişir. Ən əsası bu torpaqlarda aparılan quruculuq işləri bir daha dünyaya Azərbaycanın qüdrətini bəyan edir. Milli Məclisin deputatlarının açıqlamaları da bu barədədir.**

## Füzulidən sonra təyyarələrimiz Zəngilana və Laçına uçacaq

***Müşfiq MƏMMƏDLİ,***
*Milli Məclisin deputatı:*

- Qarşıdan Vətən müharibəsinin başlanmasının birinci ildönümü gəlir. Cəmi 44 gün ərzində bu savaş 30 ilə yaxın davam edən işğala son qoymaqla milli qürurumuzun təntənəsinə çevrildi. Bütün dünya Azərbaycanın timsalında hər cür təzyiqlərə rəğmən torpaqlarını azad etməyə qadir olan dövləti, Prezident İlham Əliyevin nümunəsində müdrik, qətiyyətli və cəsarətli lideri gördü. Xalqımız bu müharibədə sarsılmaz milli birliyin örnəyini yaratdı.

Azərbaycan Ordusu torpaqlarımızı azad etdikcə həm də bütün dünya erməni vəhşiliyinin şahidi oldu. Kənd və şəhərlərimizin 30 il davam edən işğal dövründə dağıdılması hər birimizi göynətdi. İşğaldan azad edilmiş bütün ərazilərimiz erməni vandallığının qurbanı olub, şəhər və kəndlərimiz viran qoyulub, xalqımıza və dövlətimizə qarşı cinayət törədilib. Tarixi abidələrimizə, milli-mədəni irsimizə, mənəvi dəyərlərimizə, təbiətimizə qəsd edilib. Amma əmin idik ki, bu Qələbəni bizə bəxş edən, Ermənistanın işğal siyasətinə son qoyan Ali Baş Komandan İlham Əliyev işğaldan azad olunmuş torpaqlarımızı da tezliklə azad edəcək, düşmənin vurduğu bütün yaraları aradan qaldıracaq. Üçtərəfli Bəyanatın imzalanmasından ötən 10 ay müddətində Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri bütün bu deyilənləri təsdiq edir.

Prezident İlham Əliyev ötən ilin noyabrından bu ilin avqust ayına qədər işğaldan azad olunmuş ərazilərə 11 dəfə səfər edib. Bu səfərlər, ilk növbədə, dövlət başçısının azad olunan ərazilərimizin yenidən qurulmasına olan həssas münasibətindən xəbər verir. Hər bir səfər azad olunmuş Qarabağın və Şərqi Zəngəzurun dirçəlməsinə xidmət edən müxtəlif infrastruktur layihələrinin təməlinin qoyulması ilə yadda qalıb. Təsadüfi deyil ki, işğaldan azad edilmiş torpaqlarımız indi böyük inşaat meydanıdır. Hazırda Qarabağ və Şərqi Zəngəzurda 10 yeni avtomobil yolu, 3 hava limanı, dəmir yolu xətləri, su elektrik stansiyaları, yarımstansiyalar, su xətləri inşa olunur. Həmçinin ermənilərin dağıtdığı kənd və şəhərlərimizin smart konsepsiyalar əsasında bərpasına başlanılıb.

İndiyədək bəzi infrastruktur layihələr uğurla yerinə yetirilib. Məsələn, hələ bir neçə ay əvvəl Laçında Prezident İlham Əliyevin iştirakı ilə Güləbird elektrik stansiyası istifadəyə verilib. Şuşanın yenidən qurulması, tarixi-mədəni irsinin bərpası istiqamətində xeyli iş görülüb. Bütün bunlarla yanaşı, mal-qaranın, arı təsərrüfatlarının Kəlbəcər yaylaqlarına aparılması da Böyük qayıdışın təcəssümüdür.

Bir neçə gün öncə inşası başa çatmaq üzrə olan Füzuli Beynəlxalq Hava Limanına ilk təyyarənin eniş etməsi torpaqlarımızın işğaldan azad edilməsinin və Qarabağdakı yenidənqurma işlərinin növbəti təcəssümü oldu. Biz torpaqlarımızın azad ediləcəyinə əmin idik, həmin günün mütləq yetişəcəyinə inanırdıq. 2020-ci ilin bu günlərində təsəvvür belə etmirdik ki, cəmi bir ildən sonra Bakıdan Qarabağa təyyarə ilə getmək mümkün olacaq. Vətən müharibəsində torpaqlarımızın azad edilməsi kimi tarixi missiyanı layiqincə yerinə yetirən möhtərəm Prezident İlham Əliyevin başlatdığı bərpa və quruculuq işləri bunu da reallığa çevirdi.

İndi işğaldan azad edilmiş yurd yerlərimizə həm də hava yolu ilə qayıdırıq. Bu baxımdan Füzuli Beynəlxalq Hava Limanının siyasi əhəmiyyəti olduqca böyükdür. Çünki bu hava limanına enən dünyanın ən böyük təyyarələrinin timsalında bütün dünya Azərbaycanın azad etdiyi torpaqlarının sürətlə dirçəltməsinə şahidlik etdi. Eyni zamanda Qarabağda bundan sonra çoxsaylı bərpa layihələrinin həyata keçiriləcəyini nəzərə alanda Füzuli hava limanının yaradılmasının iqtisadi baxımdan səmərəliliyi də aydın görünür.

Bu ilin aprelində təməli qoyulan Zəngilan Beynəlxalq Hava Limanını Zəngəzur dəhlizinin, Şərqi Zəngəzurdan Qərbi Zəngəzura uzanan nəqliyyat arteriyasının əsas tərkib hissəsi olacaq, regionda güclü logistik habın yaradılmasına imkan verəcək. O cümlədən Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq Laçın Beynəlxalq Hava Limanı olduqca mühüm strateji əhəmiyyət daşıyacaq. Bu hava limanı Laçın və Kəlbəcər rayonları ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq.

Bizi qarşıda zəfərimizin təntənəsi olan yeni sevincli anlar gözləyir. Çünki Füzulidən sonra tezliklə təyyarələrimiz Zəngilana və Laçına da uçacaqlar...

## Tikinti-quruculuq işləri miqyasına və sürətinə görə heyrət doğurur

***Sevil MİKAYILOVA,***
*Milli Məclisin deputatı:*

- 30 il işğal altında saxlanılan Azərbaycan ərazilərinin 44 günlük müharibə nəticəsində müasir hərbi taktika tətbiq etməklə sürətlə azad olunması böyük diqqətlə izlənilirdi. Hazırda isə işğaldan azad olunmuş ərazilərin sürətli bərpa olunması prosesi daha böyük maraqla izlənilir.

Altı üstünə çevrilmiş, infrastrukturu dağıdılmış, qeyri-rasional istismara məruz qalmış ərazilərin bərpası və yenidən qurulması Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında prioriet dövlət siyasəti kimi həyata keçirilir. Məqsəd burada normal yaşam şəraiti yaratmaq və 1 milyondan cox Azərbaycan vətəndaşının öz evlərinə təhlükəsiz qayıdışını təmin etməkdir.

Qarabağ və ətraf rayonların bərpası planlı şəkildə aparılır, yüksək keyfiyyətlə və zövqlə davam edən tikinti-quruculuq işləri öz miqyasına və sürətinə görə heyrət doğurur. Azərbaycanın ərazilərinin bərpası konsepsiyası yeni bir presedent yaradır. İnnovativ əsaslarla aparılan bərpa və yenidənqurma işləri isə bütün parametrlərinə görə nümunə göstərilir. Xüsusilə, Zəngilan rayonunda gerçəkləşdirilən “ağıllı kənd” layihəsi bu regionda yaşıl iqtisadiyyat konsepsiyasının ilk modeli olacaq. İqtisadiyyatın dirçəldilməsi və yeni infrastrukur layihələri viran qoyulmuş milli-mədəni, tarixi abidələrin bərpası və yenidənqurulması ilə paralel aparılır. Dini məbədlər, məscidlər, tarixi abidələr, milli-mədəni irsimizə aid digər nümunələr bu ərazilərin milli-memarlıq və tarixi xüsusiyyətləri gözlənilməklə bərpa edilir. Bu, dövlətimizin tarixi irsimizə qayğı və həssaslıqla yanaşmasının göstəricisidir.

Bu günlərdə Şuşa şəhərində böyük açılışının baş tutduğu Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi erməni işğalından azad olunduqdan sonra bu ərazilərdə milli irsimizin yenidən canlandırılması istiqamətində mühüm hadisə oldu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə yenidən keçirilən Vaqif Poeziya Günləri Qarabağ torpağına əbədı qayıdışımızın təntənəsi idi.

Azərbaycanın yeni inkişaf strategiyası bu vaxta qədər əlçatan olmayan potensialından səmərəli istifadə etməyi hədəfləyir. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının ümumilikdə 1.7 milyon hektar ərazisi işğal olunmuşdu. Əsrarəngiz təbii landşaftı, rəngarəng fauna və florası, zəngin faydalı qazıntı ehtiyatları, meşə örtüyü, dağlıq və düzəngah əraziləri, bolsulu çayları, böyük su ehtiyatları olan bu ərazilər uzun müddət iqtisadiyyatımızdan təcrid olunub. Ölkə ərazisinin 1/5 hissəsini təşkil edən bu regionun ana iqtisadiyyata reinteqrasiyası əlavə dəyər yaratmaqla, ölkəmizin iqtisadi qüdrətini daha da artıracaq. Kənd təsərrüfatının bərpa olunması, sənaye istehsalının yaradılması, turizm imkanlarından rasional istifadə ölkəmizin iqtisadiyyatını daha da artıracaq. Belə ki, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı üçün bu ərazilər kifayət qədər resurslara malikdir.

Müasir yol qovşaqlarının, nəqliyyat infrastrukturunun yaradılması bərpa prosesində vacib addım kimi nəzərdə tutulmuşdu. Tez bir zamanda “Zəfər yolu”nun tikintisinin aparılması, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə hazır vəziyyətə gətirilməsi bu ərazilərin regional iqtisadi inteqrasiya və dövlətlərarası əməkdaşlıq çərçivələrinin qurulmasında da böyük rol oynayacaq. Regionun hava nəqliyyatına yeni qovşaq kimi daxili olan Füzuli hava limanı həm yükdaşımaları, həm də sərnişin daşımaları həyata keçirəcək. Yeri gəlmişkən dövlət başçısının tapşırığı ilə Laçın və Zəngilan rayonlarında beynəlxalq hava limanlarının tikintisi isə davam edir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması ölkəmizin iqtisadiyyatına canlanma gətirəcək. Dünya Bankının qənaətinə görə, işğaldan azad olunmuş ərazilərdə iqtisadi fəallığın yaranması Azərbaycan iqtisadiyyatının növbət illərdə sürətli və genişmiqyaslı inkişafını təmin edəcək, ÜDM-in həcmini artıracaq. Yeni iş yerlərinin yaradılması isə əhalinin həyat şəraitinin daha da yaxşılaşması ilə nəticələnəcək.

## Azad olunmuş ərazilərimizin bərpası əhatəli və məzmunludur

***Könül NURULLAYEVA,***
*Milli Məclisin deputatı:*

- Azərbaycanın möhtəşəm qələbəsi, 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın azad olunması ilə nəticələnən İkinci Qarabağ müharibəsinin bitməsinin 10 ayı arxada qaldı. Prinsipcə 10 ay böyük zaman kəsiyi deyil. Amma bu qısa dövrdə Qarabağda və Şərqi Zəngəzurda aparılmış bərpa və yenidənqurma işləri miqyasına, məzmununa və mahiyyətinə görə illərə bərabərdir və haqlı olaraq ictimaiyyətimiz tərəfindən böyük zəfərimizin davamı olaraq qəbul edilməkdədir.

Keçən ilin sentyabrında təsəvvür belə edə bilməzdik ki, cəmi bir ildən sonra Füzulidə Beynəlxalq Hava Limanının yaradılmasından, Şuşaya yol çəkilməsindən, Vaqifin məqbərəsinin bərpa edilməsindən, Kəlbəcərə işıq çəkilməsindən və ya ordumuzun hərbi təlimlərini Laçın rayonunun ərazisində keçirməsindən böyük fəxrlə bəhs edəcəyik. Bəli, “möcüzələr olmur” deyənlər haradasa haqlı çıxsalar da, Azərbaycan dövləti bunun əksini sübuta yetirməkdədir. Möhtərəm Prezident İlham Əliyev müdrik rəhbərliyi, qətiyyəti, siyasi uzaqgörənliyi ilə cəmi 44 günə torpaqlarımızı azad etdiyi kimi, qısa müddət ərzində Qarabağda və Şərqi Zəngəzurda da möcüzələr, xarüqələr yaradır...

İşğaldan azad olunmuş ərazilərdə ilk quruculuq layihəsinin təməli hələ döyüşlərin davam etdiyi günlərdə Suqovuşana yeni yolun çəkilişi ilə qoyulmuşdu. Müharibənin bitməsindən cəmi altı gün sonra isə Füzulidə cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə genişmiqyaslı quruculuq işlərinə start verildi. Hələ 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev Qarabağın cənnətə çevriləcəyini bəyan edərək demişdi: “Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam”.

Artıq təməli qoyulan layihələrin bir qisminin icrası başa çatmaq üzrədir. Məsələn, 2021-ci ilin yanvarında inşasına başlanan Füzuli Beynəlxalq Hava Limanı bu ay tam istifadəyə veriləcək. Bir neçə gün öncə “Qarabağ” adlı təyyarəmizin Füzuli aeroportuna enməsi Vətən müharibəsindəki Qələbənin simvolik ifadəsinə çevrildi. Bu hadisə Azərbaycanın zəfərini bir daha bütün dünyaya bəyan etdi. Dövlətimizin və xalqımızın həyatında baş verən möhtəşəm hadisə kimi tariximizə həkk olundu. Eyni zamanda bu hadisə Vətən müharibəsindəki qələbəmizin bərpa və quruculuq meydanındakı rəmzi təcəssümü oldu.

Füzuli hava limanının və daha sonra Zəngilan və Laçında yeni hava limanlarının inşası ilkin mərhələdə Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin sürətləndirilməsinə təkan verəcək. Sonrakı mərhələdə isə bu hava limanları Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi və turizm potensiallarının realizə edilməsində, bütövlükdə bu bölgələrimizin yüksəlişində, keçmiş şöhrətlərini bərpa etməsində əhəmiyyətli rol oynayacaq.

Qəhrəman hərbçilərimizin Şuşa şəhərini işğaldan azad edərkən keçdikləri cığırların üzərində inşa olunan “Zəfər yolu” da işğaldan azad olunmuş torpaqlarımızdakı sürətli bərpa prosesinin təcəssümüdür. O cümlədən Şuşada dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı, “Qarabağ” hotelinin və görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışı, “Hotel və Konfrans Mərkəzi”nin təməlinin qoyulması göstərdi ki, azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işləri olduqca əhatəli və məzmunludur.

Görünən odur ki, azad olunmuş ərazilərin bərpası üçün Azərbaycan Prezidentinin müəyyən etdiyi konkret, dəqiq və məzmunlu fəaliyyət proqramı uğurla, sürətlə və keyfiyyətlə həyata keçirilir. Yaxın vaxtlarda isə Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurmanın təcəssümü olan başqa layihələrin başa çatdırılmasının və ya təməlinin qoyulmasının şahidi olacağıq.

## Füzuli aeroportu regionun ixrac imkanlarının genişləndirilməsi baxımından vacibdir

***Vüqar BAYRAMOV,***
*Milli Məclisin deputatı:*

- Füzuli aeroportu dünyada ən qısa zamanda inşa edilən beynəlxalq hava limanlarından biridir. Bu ilin əvvəlində inşasına başlanan hava limanında artıq ilk uçuşu həyata keçirmək mümkün oldu.

Qısa müddətdə hava limanının ilkin infrastrukturu əsaslı şəkildə formalaşdırıldı. Hava limanı uzunluğu 3 kilometr, eni 60 metr olan uçuş-enmə zolağı, 60 min kvadratmetrlik 8 hava gəmisinin dayanması üçün sahə, sərnişinlərə xidmət göstərən terminal, hava gəmilərinin idarəedilməsi üçün qüllə, transformator yarımstansiyası, qazanxana, su anbarı və başqa köməkçi tikililərdən ibarət olacaq. Hava limanı 1 saatda 200 sərnişinə xidmət edə biləcək. Füzuli hava limanı işğaldan azad edilmiş ərazilərimizə xarici turistlərin gəlməsi baxımından olduqca faydalıdır və inkişaf üçün yeni imkanlar yaradacaq. Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən xarici turistlərin sayı kifayət qədər çoxdur.

Füzulidə hava limanının tikilməsi turistlərə daha sərfəli və qısa yolla işğaldan azad olunan ərazilərimizə səfər etmək imkanı verəcək. Bu amil işğaldan azad edilmiş ərazilərimizə, eləcə də Füzuli rayonuna gələcək turistlərin sayına müsbət təsir göstərəcək və daha çox turistin ölkəmizə gəlməsinə səbəb olacaq. Eyni zamanda hava limanı yükdaşımalar, xüsusən də beynəlxalq yükdaşımalar üçün vacib əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərimizin sənaye potensialını nəzərə alsaq, Füzulidə açılacaq hava limanı, həm də həmin ərazilərdə istehsal olunacaq sənaye məhsullarının dünya bazarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından vacibdir. Hava limanının inşası və yaxın gələcəkdə istifadəyə verilməsi yeni iş yerlərinin açılmasına da xidmət edəcək. Bu, xüsusən işğaldan azad olunmuş ərazilərimizdə məskunlaşan vətəndaşlarımızın məşğulluğunun təmin olunması baxımından önəmlidir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Jurnalistikanın təmizlənməsinə ciddi ehtiyac var



*Əvvəli 1-ci səh.*

Yaxud Şəbnəm Tovuzlunun, Ayanın, Rəqsanənin hamilə olduqlarını kim daha tez yazacaq, sonra da “ata axtarışı”na başlayacaq, kim ərindən küsüb, kim boşanıb, kimin ayaqqabısının, donunun qiyməti neçəyədir, hansı müğənni nə dedi, kim kimə sponsorluq edir... kimi xəbərlər KİV-in gündəmini zəbt etməli deyil. Əlbəttə, şoudan da yazmaq olar və yazılmalıdır. Ancaq belə mövzuları günlərlə müzakirəyə çevirmək və ya eybəcər şəkildə təqdim etmək, oxucunun, dinləyicinin, tamaşaçının diqqətini “mühüm xəbər” kimi bu cür məsələlərə yönəltmək doğru deyil. Hələ bu azmış kimi səhhətində problem yaranan, vəziyyəti ağırlaşan tanınmış sənətkarları o qədər “öldürüb” “dirildirlər” ki, sonunda ailələri, doğmaları dilə gəlib “bəsdirin” deyirlər.

Bir çox televiziya verilişlərinin aparıcılarının isə fikri-zikri qalmaqal salıb, şou yaratmaqdır. Elə vəziyyət yaranıb ki, tanımasan aparıcının müğənni, aktyor, aktrisa, yaxud jurnalist olduğunu müəyyənləşdirə bilməzsən. Çünki verilişlərinin mövzusu, özlərinin danışıq səviyyəsi, müsahiblərinə yanaşma tərzləri bir-birindən fərqlənmir. Aralarında yaxşı tanıdıqlarımız da var ki, iki cümləni ard-arda yaza, söyləyə bilmirlər, nə savadları, nə də öz üzərlərində işləmək, mütaliə etmək, öyrənmək həvəsləri var. Amma televeziya ekranlarından üzümüzə dirənirlər, ağızdolusu özlərini “jurnalist” adlandırırlar. Hələ bir hamıya məsləhət də verir, yol da göstərirlər.

Özünə, sözünə güvənən ziyalıların əksəriyyəti bu gün efirlərdən uzaq düşüblər. Çünki artıq bildilər ki, onları verilişlərə ziyalı sözü eşitmək üçün yox, haray-qışqırıq salmaq, şou yaratmaq, bir sözlə, reytinq qazanmaq üçün dəvət edirlər.

Televeziya kanallarında sosial problemlər deyil, məişət problemləri ictimailəşdirilir. Şəxsi münasibətlər, məhəlli xarakter daşıyan məsələlər müzakirəyə çıxarılır. Nəticədə, diqqəti ictimailəşdirilməsi gərəkli olan sosial problemlərə yönəltmək əvəzinə, tamaşaçı məişət səviyyəsinə endirilir. Etiraf etməliyik ki, belə verilişlərə baxanlar da çox olur. Amma həmin tamaşaçılar sanki serialın vaxtını gözləyirlər ki, görsünlər gəlinlə qayınananın, ərlə arvadın, anayla övladının, qonşuyla qonşunun münaqişəsinin sonu necə bitəcək.

Bu gün cəmiyyətdə təəssüf doğuran məsələlərdən biri də intihar statistikasının yüksəlməsidir. Hətta yeniyetmələr arasında da canına qıyanlar olur. Məişət zorakılığı nəticəsində ölüm halları artır. İnsanlar qətlə yetirilir, ailələr dağılır. Bu gün cəmiyyəti narahat edən bu məsələlərdən yazmalı, səbəblərini araşdırmalı, təhlil etməli olan KİV-in laqeydlik göstərdiyini deyə bilmərik. Ancaq intihar hadisələrinin detalınadək yazmaq, danışmaq, izah etmək yolverilməzdir. Çünki yayılan məlumatları görən, oxuyan auditoriya fərqlidir. Diqqət etməliyik ki, necə deyərlər, qaş düzəltdiyimiz yerdə, vurub gözü də çıxarmayaq.

Dövrümüzdə jurnalistlərin üzərinə düşən missiya daha da artıb. Sosial şəbəkələrdə, onlayn resurslarda yayılan xəbərlər cəlbedicidir. Digər tərəfdən operativ olmaq tələb olunur. Həmin xəbərlərin dəqiqləşdirilməsi üçün də vaxt lazımdır. Bu isə o deməkdir ki, müasir dövrün jurnalistləri daha dəqiq, operativ və peşəkar olmalıdırlar. Çox vaxt bunun əksini görürük. Media nümayəndələri öz üzərində çalışmır, xəbər hazırlayacağı, məqalə yazacağı sahəni öyrənməyə, informasiya toplamağa tənbəllik edir və ona görə də hadisələrdən uzaq düşürlər. Nəticələri isə göz qabağındadır. Təəccüblənirik, hirslənirik, öz aramızda isə xəcalət çəkirik ki, bu necə jurnalistdir, verdikləri sualın nə quruluşu düzgündür, nə də mahiyyəti anlaşılandır. Ancaq o media mənsubları Azərbaycan jurnalistikasına zənbillə düşməyiblər.

Azərbaycan jurnalistikasının bugünkü problemi naşı və savadsız suallar verən, yanlış informasiyalar yazan jurnalistlər olmamalıdır. Elə vəziyyət yaranmamalıdır ki, məmur jurnalistə irad bildirsin ki, səmimi deyirəm, sənin nə soruşduğunu heç anlamadım.

Son illər jurnalistikanın nüfuzdan düşdüyü söylənilir. Peşəkar jurnalistləri, bu sənətə böyük hörmət bəsləyənləri bu məqam narahat edir. Narahat olmağa isə, göründüyü kimi, çox böyük əsaslar var.

...Bu isə aylar əvvəlin söhbətidir. Xalq artisti Xuraman Qasımova etik qaydaları nəzərə alaraq adını çəkmədiyi bir jurnalistin onun barəsində hazırladığı müsahibəni dərc olunmazdan qabaq oxuyarkən keçirdiyi hisslərdən danışdı mənə:

- Yazdıqlarının içərisində yerli-yerində bircə cümlə yox idi. Aldım əlindən yazını cırdım. Dörd saat mən diktə elədim, o yazdı. Getdi. İndi o, işlədiyi redaksiyada məqaləni mən hazırlamışam deyəcək?

Məlumatın alınması, toplanması və yayılmasına məsul olan jurnalistdən hamı razı qalmaya bilər. Onun doğruları yazması, güzəştsizliyi narazılıqlara səbəb ola bilər. Ancaq hər bir halda bu peşə sahiblərinin cümlə qura bilməməkdə qınanılmaları acınacaqlıdır.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***



# İlham Əliyev Qafqazın ən qüdrətli ordusunun gücünə güc qatır

Əvvəli 1-ci səh.

Laçında keçirilən təlimdə isə əsas məqsəd döyüş əməliyyatlarının aparılması zamanı qarşılıqlı fəaliyyətin və döyüş uzlaşmasının təkmilləşdirilməsinə, o cümlədən komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqlarının inkişaf etdirilməsinə yönəldilib.

Təlimdə müasir döyüş texnikası və digər hərbi vasitələrin çətin relyef şəraitində istifadə etmə vərdişlərinin artırılmasına xüsusi diqqət yetirilir.

Göründüyü kimi, iki ölkə arasında birgə təlimlərin sayı kifayət qədər artıb. Bütün bunlar Azərbaycanla Türkiyə arasında 2010-cu ildə imzalanan strateji əməkdaşlıq sazişinə əsasən həyata keçirilir. Bundan başqa, Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq baxımından perspektiv planlar da mövcuddur. Buraya hərbi kadrların hazırlanması, maddi-texniki təchizatdan tutmuş müdafiə sənayesi sahəsinə qədər yeni birgə əməkdaşlıq məsələləri daxildir. Perspektivdə iki ölkə arasında hərtərəfli hərbi əməkdaşlığın gücləndirilməsi istiqamətində yeni imkanlar mövcuddur. Türkiyə Azərbaycana taktiki və strateji dövrdə hərbi dəstəyini davam etdirməkdə qərarlıdır.

Birgə təlimlər hər zamankı kimi Ermənistanda ciddi narahatlıq doğurub. Guya bu təlimlər hərbi-siyasi təzyiq vasitəsidir. Lakin məğlub ölkə bilməlidir ki, təlim keçirilən ərazi Azərbaycan torpaqlarıdır və buna görə də ölkəmiz öz ərazisinin istənilən nöqtəsində, o cümlədən, rus sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə əməliyyatlar keçirmək hüququna malikdir.

Əgər Azərbaycan Ermənistana hansısa hərbi təzyiq göstərmək istəsə, buna Ali Baş Komandan İlham Əliyevin yaratdığı Müzəffər Ordunun bircə həmləsi yetər. Necə ki, 44 günlük savaşda olduğu kimi.

Təlimlərə gəldikdə, ümumiyyətlə, müasir dövrdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib genişləndirilməsi Azərbaycanın xarici siyasətinin mühüm tərkib hissəsidir. Tarixi köklərə və qardaşlığa söykənən iki ölkə arasında əlaqələr siyasi, iqtisadi-ticari, humanitar, hərbi və s. sahələrdə uğurla inkişaf etməkdədir. Hər iki ölkə dünyanın bir sıra mühüm geosiyasi və geoiqtisadi proseslərinin cərəyan etdiyi mürəkkəb regionda etibarlı strateji tərəfdaşlar kimi münasibətlərin daim inkişafında və daha da gücləndirilməsində maraqlı olduğunu əməli addımlarla nümayiş etdirir. Bu təlimlər də birliyin, qardaşlığın təzahürüdür.

## Dünyanın ən güclü orduları sırasında

Müharibə bitsə də, Ali Baş Komandanın orduya göstərdiyi diqqət və qayğı, döyüş hazırlığı, maddi-texniki bazanın daim yenilənməsi və ən əsası, hər bir əsgərin döyüş əzminin yüksəkliyi hər zaman prioritet olaraq qalır.

Çünki Vətən müharibəsi göstərdi ki, güclü ordunun yaradılması, Silahlı Qüvvələrimizin ən müasir döyüş vasitələri ilə təchiz edilməsi, şəxsi heyətin peşəkarlıq səviyyəsinin və hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, ordu ilə xalqın vəhdətinin təmin edilməsi möhtəşəm qələbənin kökündə dayanan reallıqlardır. Azərbaycan Ordusu Vətən müharibəsində qazandığı qələbəsi ilə hazırkı dünyanın ən güclü, müasir, hazırlıqlı, yüksək döyüş qabiliyyətinə malik olan orduları sırasında layiqli yer tutduğunu əyani şəkildə sübuta yetirib.

Prezident İlham Əliyev hərbi quruculuq sahəsində islahatlar aparmaqda davam edir. İşğaldan azad edilmiş torpaqlarımızda yeni hərbi birləşmələr yaradılır və onlar ən müasir hərbi texnikalarla təchiz edilir. Bütün hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl işlər görülür.

Hazırda Cənubi Qafqazın ən qüdrətli hərbi gücünə malik olan Azərbaycan Silahlı Qüvvələri dünyanın 50 ən güclü ordusu sırasında yer alır. Vətən müharibəsindən 11 ay ötməsinə baxmayaraq, dünyanın inkişaf etmiş ölkələrinin hərbi ekspertləri hələ də Azərbaycan Ordusunun müasir döyüş taktikasından, Şuşa əməliyyatlarından danışırlar.

Qarşıda dayanan əsas vəzifələrdən biri ordunun daha da gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsidir. Hazırda Azərbaycanın Silahlı Qüvvələri döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Bu gün dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar Azərbaycanda var. Ölkəmizin inkişaf etmiş hərbi sənaye kompleksi də bu gücə güc qatır. Son illərdə formalaşan və dinamik templə inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir. Müdafiə Sənayesi Nazirliyinin müəssisələri tərəfindən 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Nazirliyin 23-dən çox müəssisəsində ən müasir texnologiya və avadanlıqlarla təchiz olunan 50-dən çox yeni istehsal sahəsi yaradılıb. İstehsal sahələrində müasir tələblərə cavab verən rəqəmsal, proqram təminatlı 25-dən çox mürəkkəb texnoloji xətt və avadanlıqlar quraşdırılıb. 2200-dən çox müxtəlif təyinatlı dəzgah, 10 minlərlə cihaz, alət və tərtibatlar alınaraq istismar üçün müəssisələrə verilib.

Xüsusi olaraq vurğulayaq ki, Azərbaycan hazırda piyadaların özünümüdafiə və düşməni məhvetmə vasitələrindən olan kiçik və ortaçaplı atıcı silahlar istehsal edən azsaylı ölkələrdən biridir. Bu gün ölkəmiz müasir və keyfiyyətli hərbi təyinatlı məhsulların istehsalçısı kimi dünyada tanınır. Qazanılan nailiyyətlər istehsal edilən rəqabətədavamlı məhsulların dünya bazarına çıxarılmasına şərait yaradır və bunlar silahlı qüvvələrimizlə yanaşı, bir sıra xarici ölkələrin ordularının da silahlanmasına qəbul edilir.

Bir sözlə, Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Bütün bunlar göstərir ki, Azərbaycanda ordu quruculuğu sahəsində aparılan islahatlar kompleks şəkildə həyata keçirilir. Həm ordunun arsenalına ən modern silahlar daxil edilir, həm qoşun növlərinin döyüş qabiliyyəti artırılır, həm də hərbçilərin sosial şəraiti yüksəldilir. Bütün bunlar isə İlham Əliyevin Ali Baş Komandan kimi əzmkar fəaliyyətinin daha bir əməli nəticəsidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Yüksəlişə yol açan gənclər siyasəti

## Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, idman və digər faydalı məşğuliyyətlərə cəlb edilməsi dövlətin prioritet istiqamətidir

Əvvəli 1-ci səh.

44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın 30 illik erməni işğalına son qoyan Azərbaycan gəncliyi buna gözəl nümunədir. Ondan əvvəl Mübariz İbrahimov kimi igidlik və ləyaqət nümunələri, 2016-cı ilin aprelində şanlı Lələtəpə döyüşləri, ötən ilin iyulunda Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində erməni ordusunun təxribatına verilən tutarlı cavab da tarixi qələbəmizi yaxınlaşdıran şərəfli səhifələrdir. İdmançılarımızın, hərbçilərimizin həyatındakı bu faktların çoxluğu insanda qürur doğurur.

Prezident İlham Əliyev son illər gənc kadrların işlə təmin olunması, yüksək vəzifələrə irəli çəkilməsi istiqamətində əməli addımlar atır, günün tələblərinə cavab verməyən sahələrdə islahatlar aparır, gənclər siyasətini zamanın çağırışlarına uyğun reallaşdırır. Neçə-neçə layiqli gənc məsul vəzifələrdə çalışır, elm, texnika və təhsil sahəsində yeni-yeni uğurlara imza atır.

Sentyabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən gənclərin dəyərli ənənələri layiqincə davam etdirdiklərini xüsusi vurğulayıb. Dövlət başçısı dedi ki, bütün bunlar fərəhlidir, amma uğurlarla bərabər, bütövlükdə gənclərimizin tərbiyə prosesi ciddi diqqət mərkəzində olmalıdır. Onlar ənənəvi milli dəyərlər əsasında, vətənpərvərlik ruhunda böyüməli və irəli getməlidirlər. Gənclərimizin mənfi xarici təsirdən uzaq olmaları üçün daim iş aparılmalıdır. Onlar biliyi ilə seçilməli, mütləq mənada, milli mədəniyyətimizin daşıyıcısı olmalıdır. Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində fərqlənən gənclərimizin sayı daha da artmalıdır.

Bu uğurların coğrafiyasını genişləndirmək üçün Prezident İlham Əliyev çıxışında xüsusi olaraq vurğulamışdır: "Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Gənclər savadlı, bilikli olmalıdırlar, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdırlar. Bizim milli dəyərlərimizi dərk etməlidirlər, onları yaşatmalıdırlar və bu istiqamətdə çox ciddi iş aparılmalıdır. Çünki indiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni, gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, bunun qarşısı alınmalıdır. Burada vətənpərvərlik hissləri ön planda olmalıdır. Əlbəttə ki, İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır".

Göründüyü kimi, dövlətimizin gənclər siyasətində böyüməkdə olan nəslin sağlam, vətənpərvər və milli ruhda yetişməsində idman mühüm yer tutur. Ölkə rəhbərinin ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələri ilə bir sırada vüqarla addımlayır. İdmanın yaratdığı sağlam bədən, sağlam ruh sayəsində gənclərimiz bu günün qəhrəmanları səviyyəsinə yüksəliblər. İdmançı gənclər yeganə sosial təbəqədir ki, onların qələbələri şərəfinə Dövlət Himni səslənir, bayraq qaldırılır. Qürurla xatırlayırıq ki, hələ 2009-cu ildə Ermənistanın paytaxtı İrəvan şəhərində keçirilən Gənclərin Avropa çempionatının qızıl medalçısı, cüdoçu Elmar Qasımovun şərəfinə himnimizin səsləndirilməsi, bayrağımızın qaldırılması idman sarayında olan hər kəsi ayağa qaxmağa məcbur etmişdi. Elə bu faktın özü də işğalçı Ermənistan üzərində qazanılacaq böyük qələbənin heç də uzaqda olmadığının simvolu idi.

Prezident İlham Əliyev yeni gənclər və idman nazirini qəbul edəndə idman ölkəsi kimi tanınan Azərbaycanın mötəbər beynəlxalq yarışlarda - olimpiadalarda, dünya və Avropa çempionatlarında parlaq qələbələr qazanması ənənəsini layiqincə davam etdirmək zərurətini önə çəkdi: "Beynəlxalq yarışlarda idmançılarımız yüksək nəticələr göstərirlər. Düzdür, Azərbaycan ictimaiyyəti bizim idman sahəsindəki qələbələrə öyrəşib və əgər biz hansısa nəticəni əldə edə bilmiriksə, əlbəttə ki, məyus oluruq. Ancaq hamımız bilməliyik ki, idman sahəsində rəqabət kifayət qədər güclüdür və bütövlükdə son illər ərzində idman sahəsində göstərilən nəticələr, əlbəttə, qürurvericidir. İdmançılarımız dünya, Avropa Oyunlarında, digər beynəlxalq yarışlarda bizi sevindirirlər. Olimpiya Oyunlarında Rio Olimpiya Oyunları ilə müqayisədə az medal qazansaq da, yenə də hesab edirəm ki, idmançılarımız yaxşı nəticə göstəriblər. Medalların sayına görə Azərbaycan 33-cü yeri, Avropa ölkələri arasında 20-ci, müsəlman ölkələri arasında isə 4-cü yeri tutub... Paralimpiyaçılarımız bizi çox sevindirib və böyük məharət, peşəkarlıq, fədakarlıq göstərərək çoxlu medallar, o cümlədən bir çox qızıl medallar qazanıblar. Əlbəttə ki, bu da çox önəmli hadisədir və biz haqlı olaraq paralimpiyaçılarımızla fəxr edirik".

Prezident, eyni zamanda, idman sahəsində buraxılan bəzi nöqsanlara da diqqəti cəlb edib və bunların ciddi araşdırılmalı, təhlil edilməli olduğunu bildirib. Xüsusilə Olimpiya Oyunlarına hazırlıq dövründə bəzi federasiyalarda işlər qənaətbəxş olmayıb. Narahatlıq doğuran bir məqam da odur ki, son Olimpiya Oyunlarında medal qazanmış idmançılarımız əsasən təcrübəli və demək olar ki, veteran atletlər oldular. Bu sırada gənclərin sayı azdı. Bu, çox ciddi təhlil edilməli, fəxri kürsüyə ucalan qaliblər arasında məxsusi bir gəncləşmə prosesinə nail olunmalıdır.

Bütün bunlarla yanaşı, cənab Prezident onu da diqqətə çatdırmışdır: "İdman sahəsində tərbiyə məsələlərinə də çox ciddi diqqət yetirmək lazımdır. Bütövlükdə gənclərimizin tərbiyə edilməsi prosesi diqqət mərkəzində olmalıdır. Gənclərimiz ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Həm məktəblərdə, həm ailələrdə ənənəvi dəyərlər bizim əsas sütunumuzdur".

Milli dəyərlərimizi əsas prinsip kimi gündəmdə saxlayan dövlət başçısı gənclərimizin bu ruhda tərbiyə almalarını, vətənpərvərlik ruhunda böyümələrini, ailələrinə və cəmiyyətə layiq vətəndaş olmasını tövsiyə edir və xüsusi olaraq bildirir ki, gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Dövlətimiz çalışır ki, Azərbaycan gəncləri sağlam düşüncəli, bilikli olmaqla, fəaliyyətlərində milli mədəniyyətimizi, milli mentalitetimizi, milli dəyərlərimizi, vətənpərvərlk hissini, vətənə ləyaqətlə xidmət, milli dövlətçiliyə sədaqət məsələlərini həyat tərzinə çevirsinlər. Cənab Prezidentin dediyi kimi "çünki indiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni, gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, bunun qarşısı alınmalıdır. Burada vətənpərvərlik hissləri ön planda olmalıdır.

Əlbəttə ki, İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır. 44 günlük Vətən müharibəsinin hər günü bizim üçün əzizdir, doğmadır. Vətən uğrunda öz canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bizim üçün doğmadır, bizim üçün müqəddəsdir və gənclər bu nümunələr əsasında tərbiyə almalıdırlar. Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Bunun çox böyük mənəvi və psixoloji mənası var. Uzun illər Azərbaycan işğala məruz qalmış ölkə, biz azərbaycanlılar isə düşmən tərəfindən öz doğma torpağından didərgin salınmış xalq kimi yaşamışıq, əzab-əziyyət içində yaşamışıq, fiziki və mənəvi əzablar içində yaşamışıq. Biz buna son qoyduq. Bundan sonra müzəffər xalq kimi, qalib ölkə kimi, qürurlu insanlar kimi əbədi yaşayacağıq. Bu şanlı tarixi yaşatmaq üçün, qorumaq üçün və gəncləri bunun əsasında tərbiyə etmək üçün sizin nazirliyinizin üzərinə böyük vəzifələr düşür".

Gənclik həssas və məsuliyyətli yaş dövrüdür. Yeniyetmələrin sağlam böyüməsi, hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması, dövrün tələblərinə cavab verən peşə, sənət və ali təhsillə təmin olunmaları üçün lazımi şərait yaradılır. Onların asudə vaxtlarının səmərəli təşkili, xüsusilə də idman, yaradıcılıq və digər faydalı məşğuliyyətlərə cəlb edilməsi Azərbaycan dövlətinin prioritetidir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# "TurAz Şahini-2021" birgə təlimləri davam edir

"TurAz Şahini-2021" birgə taktiki-uçuş təlimlərinin planına əsasən Azərbaycanın və qardaş Türkiyə Respublikasının döyüş təyyarələri əməliyyat uçuşları yerinə yetiriblər.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərdə hər iki ölkənin Hərbi Hava Qüvvələrinin iştirakı ilə birgə əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyətin və fərqli xüsusiyyətlərə malik döyüş təyyarələri arasında rabitə əlaqəsinin uzlaşdırılması imkanları öyrənilir. Eyni zamanda, havadan zərbələr endirməklə şərti düşmənin hava hücumundan müdafiə vasitələri və hərbi təyinatlı strateji obyektlərinin məhv edilməsi, o cümlədən yaxın hava döyüşü və digər tapşırıqlar müvəffəqiyyətlə icra olunur.

Təlimlər sentyabrın 17-dək davam edəcək.

# Azərbaycan və Türkiyə sualtı hücum və müdafiə qruplarının təlim-məşqlərində növbəti mərhələ icra olunub





Azərbaycanın və Türkiyənin sualtı hücum və sualtı müdafiə qruplarının iştirak etdiyi birgə təlim-məşqlərində növbəti mərhələnin tapşırıqları icra olunub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu mərhələdə Xəzər dənizinin Azərbaycana məxsus sektorunda şərti terrorçu qrup tərəfindən zəbt edilən gəmidə onların zərərsizləşdirilməsi və gəminin azad olunması tapşırıqları müvəffəqiyyətlə yerinə yetirilib.

Helikopter və katerlərin cəlb olunması ilə keçirilən təlimin növbəti mərhələsində iki qardaş ölkənin xüsusi təyinatlıları qarşıya qoyulan tapşırıqları yüksək peşəkarlıq göstərərək dəqiq və effektiv icra ediblər.

# Ağır məğlubiyyətin sağalmaz yaraları, tənəzzüldə olan iqtisadiyyat, kütləvi köç

Əvvəli 1-ci səh.

Məsələ iə bağlı "Nyus.am" portalı yazır: "Borc məbləğinin artmasının səbəbi Ermənistanın 2020-ci il iqtisadi böhranından tam çıxa bilməməsi və iqtisadiyyatı stimullaşdırmaq üçün əlavə tədbirlərə ehtiyacın olmasıdır. Dünyanın bütün ölkələrinin dövlət borcu var. Problem bunda yox, onun sürətli artım tempində və vəsaitlərdən effektiv istifadədədir. Xüsusi halda cari ilin 7 ayı ərzində hökumət dövlət borcunu 12,6 faiz artırıb, halbuki 2021-ci ilin yanvar-iyul aylarında Ermənistanda iqtisadi fəallıq 5,2 faiz təşkil edirdi. Hazırda Ermənistanın hər bir vətəndaşına 3032 ABŞ dolları borc düşür. Hökumət daha əvvəl elan etmişdi ki, vergi daxilolmaları 52,5 milyard dram və ya 7,5 faiz artıqlaması ilə yerinə yetirilib. Yəni bir tərəfdən əsasən inflyasiyanın hesabına vergi daxilolmaları artıb, digər tərəfdən, hökumət dövlət borcunu sürətlə artırır".

Bu vəziyyətdə iş yerlərinin bağlanması və artan inflyasiya əhalinin ölkədən yeni köçünə rəvac verir. Belə bir vaxtda aparılan hesablamalar göstərir ki, bu ilin yanvar-iyul aylarında Ermənistanda əhalinin təbii artımı cəmi 1252 nəfər olub. Ermənistan Milli Statistika Xidmətinin məlumatında bildirilir ki, bu rəqəm ötən ilin analoji dövrü ilə müqayisədə 1,8, 2019-cu illə müqayisədə isə 2,9 dəfə azdır. Müqayisələr göstərir ki, ölkədə təbii artım dinamikasındakı tendensiyalar pisləşməyə doğru gedir. Bunda Ermənistanda koronavirusdan ölənlərin sayının kəskin artması da rol oynayıb. Belə ki, yanvar-iyul aylarında koronavirusdan 2,3 mindən çox ölüm qeydə alınıb. Bu rəqəm ötən ilin analoji dövründə 800 nəfər olmuşdur.

Təbii artımın azalmasına ermənilərin kütləvi şəkildə ölkəni tərk etməsi də ciddi təsir göstərir. 2018-2020-ci illərdə və bu ilin yanvar-iyun aylarında 103.6 min erməni Rusiya vətəndaşlığını qəbul edib. Onlardan 21,9 mini cari ilin yanvar-iyun aylarının payına düşür. Ötən il isə bu rəqəm 30,5 min olmuşdu. Göründüyü kimi, proses artıq dönməz xarakter alıb.

Çünki miqrasiya prosesi təkcə Rusiya ilə məhdudlaşmır. Əsasən reproduktiv yaşda olan kişilər və qadınlar da daxil olmaqla daha çox gənc ailələr başqa ölkələrə də köçürlər. "News.am" portalı yazır: "Miqrasiya sahəsində ötənilki rekordun bu il artacağı tamamilə mümkündür. Emiqrasiya prosesinin yalnız Rusiya ilə məhdudlaşmadığı məlumdur. Həm də aydındır ki, reproduktiv yaşda kişilər və qadınlar da daxil olmaqla, əsasən gənc ailələr mühacirət edirlər. Bu, artıq qısa müddətdə ölkənin demoqrafiyasını aradan qaldırıla bilməyən mənfi nəticələrlə təhdid edir".

Ölkədə ötən illərə nisbətən xeyli pisləşən sosial-iqtisadi vəziyyət, yaxın perspektivdə həlli görünməyən siyasi böhran əhalinin gələcəklə bağlı bütün ümidlərini məhv edib. Elə bu səbəbdən həyatını Ermənistandan kənarda davam etdirmək istəyənlərin sayı artır. Rəsmi rəqəmlərə əsasən, Ermənistanda əhalinin sayı 2,9 milyon nəfərdir. Lakin ermənilərin özləri etiraf edirlər ki, reallıqda bu göstərici xeyli azdır. Çünki rəsmi qeydiyyatda olan əhalinin tərkibinə xaricdə yaşayan, ancaq Ermənistan vətəndaşlığından çıxarılmayan şəxslər də daxildir. Ermənistan hökumətinin demoqrafiya probleminin həlli üçün həyata keçirdiyi siyasət, o cümlədən əhali artımını stimullaşdırmaq üçün qəbul etdiyi proqramlar faktiki olaraq iflasa uğrayıb.

44 günlük müharibədə xeyli sayda gəncin ölməsi də vəziyyəti gərginləşdirib. Statistik məlumatlardan belə aydın olur ki, Ermənistan əhalisinin 46,5 faizini kişilər, 53,5 faizini qadınlar təşkil edir. Cins quruluşu arasındakı fərq getdikcə artır və bu da demoqrafik problemi daha kəskin hala gətirir. Belə disbalansın əsas səbəblərindən biri miqrasiyadırsa, digəri Ermənistanın 44 günlük Qarabağ savaşında canlı qüvvə sarıdan kütləvi itkiyə məruz qalmasıdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Dünyanı dəyişən gün - 11 sentyabr

## 20 il əvvəl "Əl-Qaidə"nin ABŞ-a qarşı törətdiyi terror aktları ölkələri bu cür təhlükələrə qarşı mübarizədə birləşməyə məcbur etdi

**Düz 20 il əvvəl, yerli vaxtla saat 08:46-da "American Airlines" şirkətinə məxsus sərnişin təyyarəsi Nyu Yorkda yerləşən Dünya Ticarət Mərkəzinin Şimal qülləsinə çırpıldı.**

09:03 radələrində isə Cənub qülləsi analoji hücuma məruz qaldı. Sonuncu hücumdan 40 dəqiqə sonra ABŞ Müdafiə Nazirliyi - Pentaqonun da binası intiharçıların idarə etdikləri təyyarə tərəfindən vuruldu.Bu hücumdan 25 dəqiqə keçdikdən sonra eyni məqsədlə qaçırılan daha bir sərnişin təyyarəsinin hava hücumundan müdafiə qüvvələri tərəfindən vurularaq zərərsizləşdirildiyi açıqlandı. Həmin təyyarənin hədəfinin Ağ Ev olduğu bildirildi.

2001-ci il sentyabrın 11-də beynəlxalq "Əl-Qaidə" terror təşkilatı tərəfindən ABŞ-ın Nyu York və Vaşinqton şəhərlərində həyata keçirilən həmin terror aktları 3 minə yaxın adamın ölümü, 6 mindən çox insanın yaralanması ilə nəticələndi.

Federal Təhqiqat Bürosu (FTB) qısa zamanda təyyarələri qaçıran terrorçuların siyahısını tərtib etdi. "Əl-Qaidə"nin əfsanəvi lideri Üsamə bin Laden bu əməliyyatı Əfqanıstanda bir mağarada hazırlamışdı. Tezliklə ABŞ Əfqanıstanda hakimiyyətdə olan Talibana qarşı cavab hücumuna keçdi. FTB Amerika tarixində ilk dəfə PENTTBOM əməliyyatı adlanan böyük araşdırma başladı. Şübhəlilər 72 saat ərzində müəyyənləşdirildi, çünki onların bir neçəsi uçuş biletlərində və kredit kartı qeydlərində adlarını dəyişdirməyə cəhd etmişdilər. Onlar təyyarədə Amerika vətəndaşı olmayan sərnişinlər arasında, demək olar ki, yeganə ərəb sərnişinlər idilər və bu da Federal Təhqiqat Bürosuna doğum tarixi, viza statusu, yaşayış yeri kimi məlumatlardan istifadə edərək şübhəli sərnişinlərin kimliyini müəyyənləşdirməyə imkan verdi. 2001-ci il sentyabrın 27-də Federal Təhqiqat Bürosu 19 təyyarə oğrusunun milliyyəti və uydurma adları haqqında məlumatları və şəkillərini yayımladı. Şübhəli təyyarə oğruları Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Liviya və Misirdən idilər. 11 sentyabr hücumlarının amerikalılar üzərində çox ağır təsirləri qaldı. Ölkənin hər yerindən polis məmurları və xilasetmə işçiləri Əkiz Qüllələrin qalıqları altında qalan insan cəsədlərini çıxarmaq üçün Nyu York şəhərinə axışıb gəldilər.

Bu hücumlar ABŞ və dünya bazarına əhəmiyyətli dərəcədə təsir etdi. Nyu York və Amerika məzənnə fondları sentyabrın 11-də açılmadı və sentyabrın 17-dək qapalı qaldı. Fondlar yenidən açılanda isə səhm bazarı 71 faizdən 8921 faizə endi. Bu isə bir gündə qeydə alınan ən böyük enmə idi.

Eyni zamanda ABŞ-da ərəblərə və onlara bənzəyən digər insanlara qarşı xeyli sayda hücumlar və nifrət zəminində törədilmiş cinayətlər də qeydə alındı.

Hücumdan sonra Corc Buş administrasiyası Üsamə Bin Ladenin və "Əl-Qaidə" təşkilatının ədalətə təslim olunması və digər terror şəbəkələrinin yaranmasının qarşısını almaq üçün terrorizmlə mübarizə elan etdi. Həmin mübarizə terror törədən dövlətlərə qarşı iqtisadi və hərbi sanksiyalar tətbiq etmək, qlobal ciddi nəzarət və kəşfiyyatı artırmaq məqsədlərini hədəfləyirdi. Bu hadisələr həmçinin ABŞ-ın beynəlxalq terrorçuluqla mübarizəyə, o cümlədən əvvəl Əfqanıstana, daha sonra İraqa qarşı hərbi əməliyyatlara başlaması və təəssüf ki, dünyada intensiv antiislam təbliğatının aparılması üçün bəhanə oldu.

Bütün səylərə baxmayaraq, terrorizmin kökünü bugünəcən kəsmək mümkün olmayıb. Qonşumuz Ermənistanın da yer aldığı beynəlxalq terrorizm şəbəkəsi hələ də fəaliyyətdədir və Azərbaycan da daxil olmaqla, bir çox ölkələri təhdid edir.

Xatırladaq ki, Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilati yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terror müharibəsi 1980-ci illərdən başlayaraq ardıcıl xarakter almışdır. Ermənistan tərəfindən müxtəlif dövrlərdə ölkəmizə qarşı 30-dan çox terror aktı həyata keçirilmiş, nəticədə 2000-dən çox soydaşımız qətlə yetirilmişdir. 44 günlük müharibə Ermənistanın Azərbaycana qarşı fəal şəkildə istifadə etdiyi zorakı separatizm, terrorizm və ekstremizm arasındakı əlaqəni açıq şəkildə nümayiş etdirdi.

Qonşularımızdan fərqli olaraq, Azərbaycan hər zaman terrorizmə qarşı beynəlxalq mübarizədə aktiv iştirak edir və antiterror koalisiyasının fəal üzvlərindən biridir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Şəhid sərhədçi baş leytenant Ceyhun Nəhmətovun anım tədbiri keçirilib





Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi, müqəddəs torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda Vətən müharibəsində həlak olmuş şəhid sərhədçi baş leytenant Ceyhun Nəhmətovun doğum günündə anım tədbiri keçirilib.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, sentyabrın 8-də DSX-nin bir qrup hərbi qulluqçusu, ailə üzvləri, xidmət etdiyi hərbi hissənin və ictimaiyyətin nümayəndələri Şəhidlər xiyabanında şəhidin məzarını ziyarət edib, gül çələngi qoyublar.

Paytaxtın Xəzər rayonunda şəhid Ceyhun Nəhmətovun xatirəsinə yaradılmış abidə-bulaq kompleksində davam edən anım mərasiminə qatılanlar Dövlət Sərhəd Xidməti Akademiyasının 2016-cı il məzunu olmuş Ceyhun Nəhmətovun sərhədçi-zabit andına və şərəfinə sadiq qalaraq Vətən müharibəsinin ilk günündən döyüş meydanında şücaət və fədakarlıq nümayiş etdirdiyini, Füzuli və Cəbrayıl rayonlarının bir çox yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda hərbi əməliyyatlarda qarşıya qoyulan döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyini, Zəngilan rayonu istiqamətində gedən qızğın döyüşlərdə qəhrəmanlıq göstərərək şəhadət zirvəsinə ucaldığını vurğulayıblar.

Vətən müharibəsində həlak olmuş şəhidlərimizin qanının yerdə qalmadığı, intiqamlarının döyüş meydanında alındığı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün bərpa olunduğu, xalqımıza qalibiyyət sevinci yaşatmış şəhidlərimizin əziz xatirəsinin hər zaman minnətdarlıqla anılacağı vurğulanıb.

Sərhədçi şəhid Ceyhun Nəhmətovun döyüş şücaətinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyi, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərəncamları ilə "Vətənə xidmətə görə" 3-cü dərəcəli orden, "Vətən uğrunda" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildiyi qeyd olunub.

Baş leytenant Ceyhun Nəhmətovun ailə üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıq ifadə edib, şəhidlərin xatirələrinin əbədiləşdirilməsinin, ailələrinin ziyarət edilməsinin dövlətimizin Vətən müharibəsinin iştirakçılarına göstərdiyi diqqətin, şəhidlərə ifadə olunan ehtiramının bariz nümunəsi olduğunu bildiriblər.

# Gürcüstandan Azərbaycan istiqamətində dövlət sərhədini pozaraq keçməyə cəhd göstərən 10 nəfər saxlanılıb

Sentyabrın 7-də Gürcüstandan Azərbaycan istiqamətində dövlət sərhədindən buraxılış məntəqələrindən kənarda dövlət sərhədini pozmağa cəhd göstərən 3-ü azyaşlı uşaq olmaqla 10 nəfərdən ibarət qaraçı milliyyətindən olan şəxslər saxlanılıblar.



Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzindən bildiriblər ki, araşdırma zamanı onlardan iki nəfərin eyni cinayət əməlini törətdiyinə görə hüquq mühafizə orqanları tərəfindən axtarışda olması müəyyənləşdirilib. Faktla bağlı cinayət işi başlanılıb, azyaşlılar istisna olmaqla, saxlanılan şəxslər cinayət məsuliyyətinə cəlb olunublar, hazırda istintaq tədbirləri davam etdirilir. Ümumiyyətlə, son dövrdə qaraçı milliyyətindən olan şəxslərin dövlət sərhədindən buraxılış məntəqələrindən kənarda Azərbaycan Respublikasından Gürcüstana və əks istiqamətdə dövlət sərhədini qanunsuz keçməyə cəhd göstərmə hallarının artması müşahidə olunur.

Ötən il və cari il ərzində Azərbaycan-Gürcüstan və əks istiqamətdə dövlət sərhədini 34 halda pozmuş 140 nəfər saxlanılıb. Həmin şəxslər barəsində dövlət sərhədinin qanunsuz olaraq keçmələrinə görə cinayət işi başlanılaraq ibtidai istintaq aparılıb, 63 nəfər isə azyaşlı olduqları üçün aidiyyəti üzrə icra hakimiyyətləri yanında yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi üzrə komissiyaya və ya komissiyanın iştirakı ilə müvafiq aktla valideynlərinə təhvil veriliblər.

Buna baxmayaraq, saxlanılan şəxslərdən 13 nəfərinin təkrarən bir neçə halda dövlət sərhədini qanunsuz olaraq keçməyə cəhd göstərmələri müəyyənləşdirilib.

Göstərilənləri nəzərə alaraq, bu kateqoriyadan olan sərhəd pozucularının dövlət sərhədini pozma cəhdlərinin qarşısının alınması məqsədilə Dövlət Sərhəd Xidməti tərəfindən aidiyyəti dövlət qurumları ilə birlikdə ciddi tədbirlər davam etdirilir.

# Dövlət sərhədini pozmağa cəhd göstərən üç nəfərdən biri saxlanılıb, digərlərinin axtarışları davam etdirilir

Sentyabrın 8-də saat 00:57 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Füzuli rayonunun Böyük Bəhmənli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində üç nəfər naməlum şəxsin dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən müşahidə olunub.

Baş Prokurorluğun və DSX-nin Mətbuat xidmətlərinin daxil olan birgə məlumatında bildirilib ki, sərhəd naryadı "Dayan!" komandasına, havaya xəbərdarlıq atəşinə məhəl qoymayan sərhəd pozucularının ərazidən qaçmaq cəhdinin qarşısını almaq məqsədilə "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Qanununun tələblərinə uyğun olaraq silah tətbiq edib.

Sərhəd pozucularından biri yaralanıb, digər ikisi havanın qaranlıq və ərazinin meşə massivi olmasından istifadə edərək uzaqlaşmağa müvəffəq olublar.

Qol nahiyəsindən yüngül yaralanmış sərhəd pozucusu Füzuli Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb, ona zəruri tibbi yardım göstərilib. Araşdırma zamanı saxlanılan şəxs özünü İran İslam Respublikasının vətəndaşı, 1981-ci il təvəllüdlü Zəmani Mirəsgər Mirağa kimi təqdim edib. Onun əlindəki çantaya baxış zamanı içərisindəki bağlamalardan təxmini çəkisi 11 kiloqram 770 qram narkotik vasitəyə bənzər maddələr aşkarlanıb.

Baş vermiş hadisə barədə İran tərəfi məlumatlandırılıb. Digər sərhəd pozucularının aşkarlanaraq saxlanılması məqsədilə hadisənin baş verdiyi istiqamətdə dövlət sərhəd xətti boyu ərazi qapadılıb.

Faktla bağlı Füzuli Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən narkotik vasitə və psixotrop maddələrin qaçaqmalçılığı), 234.4.1-ci, 234.4.3-cü (satış məqsədilə qanunsuz olaraq külli miqdarda narkotik vasitə və psixotrop maddələri əldə etmə, saxlama, daşıma və satma), 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq və DSX əməkdaşları ilə birgə intensiv istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

# Baş Prokurorluq hərbi qulluqçunun intihar etməsi ilə bağlı istintaqın gedişi barədə məlumat yayıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin hərbi qulluqçusunun intihar etməsi ilə bağlı istintaqın gedişi barədə məlumat yayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 6-da Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin hərbi qulluqçusu əsgər Məmmədağa Məlikzadənin odlu silahdan atəş açaraq özünü öldürməsi faktı əsasında Hərbi Prokurorluğun İstintaq idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaq aparılır.

İstintaqla "N" saylı hərbi hissəsinin baş çavuşu Fərəməz Abasovun rəis kimi hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar tabeliyində olan şəxsə - əsgər Məmmədağa Məlikzadəyə qarşı zor tətbiq etməsinə əsaslı şübhələr müəyyənləşdirilib. Fərəməz Abasov Cinayət Məcəlləsinin 329.2.1-ci (tabelikdə olan hərbi qulluqçuya qarşı zorakı hərəkətlər təkrar törədildikdə) maddəsi ilə təqsirləndirilən şəxs qismində istintaqa cəlb olunub. Bakı Hərbi Məhkəməsinin müvafiq qərarı ilə onun barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq davam edir.




# Pandemiyanın gətirdiyi yeniliklər

*Pandemiyanın dünyanı bürüdüyü bir dövrdə insanlar arasında təmassız münasibətlərin aktuallığı daha da artıb. Gün keçdikcə yeni-yeni icadlar meydana çıxır və əslində bunlar həm də həyatımızı asanlaşdırır.*

*Mütəmadi olaraq texnoloji yeniliklərlə rastlaşırıq. Qloballaşan dünyada texnoloji yeniliklərin inkişaf sürətinə yetişmək mümkün olmur. İllər öncə möcüzə hesab edilən bir çox kəşf bu gün gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilib. Hər bir ixtiranın, yeni məhsulun isə yaranma səbəbi və zərurəti var.*

## Təmassız ödəmə



**İngiltərənin "McLEAR" şikətinin təqdim etdiyi üzüklər texnologiyanın son yeniliklərindən biridir.**

İnsanların yüzilliklər boyu müxtəlif məqsədlər üçün istifadə etdiyi və ən rəngarəng çeşidlər "McLEAR" sayəsində yeni funksiya qazanıb. Belə ki, xüsusi cihaz quraşdırılmış və öz sələflərindən heç nə ilə fərqlənməyən bu üzüklər bir neçə mürəkkəb funksiyanı çox asanlıqla yerinə yetirə bilir. Beləliklə, barmağında bu üzük olan alıcı alış-veriş bitdikdən sonra kassaya yaxınlaşıb ekrana, sadəcə, barmağını yaxınlaşdırır. Bu prosesin bir müsbət cəhəti də odur ki, o, çox sürətlə baş verir və kartı qoymaq üçün pulqabına və ya çantaya ehtiyac qalmır. Onların ödəmə kartlarına nisbətən fiziki davamlılığı da çox yüksəkdir - sınmır, cızılmır, suda korlanmır.

## Telefonla idarə olunan fincan



ABŞ-ın "Ember" şirkətinin yenicə istifadəyə verdiyi bu fincanlar mobil telefonlar vasitəsilə uzaqdan idarə olunur. Onlar üzərindəki led işıqlar vasitəsilə suyun, çayın, qəhvənin temperaturu artırılır və yaxud da azaldılır. Beləliklə, bir neçə saat müddətində sizin istədiyiniz temperaturda qala bilir. Məsələn, əgər işdən evə qayıdarkən yolda ləngiyiriksə, telefonla fincanınızdakı suyu istədiyiniz temperaturda qızdırırsınız və mənzilə çatan kimi dərhal ondan istifadə edə bilərsiniz.

## Kameralı toplar

Kamera və sensorlarla təchiz edilmiş "Samsung Ballie" cihazları "ağıllı" evin funksiyalarını tam şəkildə icra edə bilir. Topşəkilli belə cihazla mənzilin içərisində müstəqil hərəkət edərək uzaq məsafədən sahibinə bir çox mühüm informasiyaları foto və videolarla mobil telefona göndərir. Hətta onun vasitəsilə mənzilin temperaturunu belə öyrənmək mümkün olur.



"Samsung Ballie" topları sahibini tanıyır, evdə olan bütün məişət texnikalarına qoşulub heç kim olmadıqda belə onları çox rahatlıqla işlədə bilir. Hətta əgər mənzildə ev heyvanları varsa, onları da yönləndirir və sizə məlumatlar çatdırır.

## "Ünsiyyətcil" maskalar



Heyrətamiz görüntüsü ilə seçilən texniki cihazlar istehsal edən ABŞ-ın "Razer" şirkəti daha bir yeniliyə imza atıb. Pandemiya dövrünün məhsulu olan bu qeyri-adi qoruyucu maskalar bir çox özəllikləri ilə seçilir. "Maska Project Hazel" adlandırılan maska hazırlandığı şəffaf materialı sayəsində sahibinin dodaq hərəkətlərini, ümumiyyətlə, mimikasını görməyi mümkün edir. Bu maskalar üzərinə quraşdırılan mikrofon və eşitmə qurğusu vasitəsilə qarşıdakı şəxslə asanlıqla səsli ünsiyyət qurulur. N95 respirator prototipi özünü dezinfeksiya edə bilir. Bu cihazın digər bir üstünlüyü isə qaranlıqda avtomatik olaraq işıqlanmasıdır.

Cəlbedici dizayna malik olan bu maskalar nitq və eşitmə qabiliyyəti zəif olan, eyni zamanda yaşlı insanlar tərəfindən maraqla qarşılanıb.

## Məsləhətçi dolab




Alimlərin insanları təəccübləndirən son icadlarından biri də süni intellektə malik dolablardır. Xüsusi quraşdırılmış sistem vasitəsilə geyimlərimizin səliqəli və gigiyenik şəkildə saxlanılmasına şərait yaradan bu saxlaclar həyatı çox rahatlaşdırır. Zahirən adi paltar dolabından seçilməyən bu yeni dolab xüsusi asqıları vasitəsilə daha çox sayda paltar saxlamağa imkan verir.

Qarşıdakı illərdə bu qarderoblara "ağıllı" güzgülərin də əlavə edilməsi nəzərdə tutulur. Bu güzgülər istifadəçilərə bədən quruluşuna və stillərinə görə gərəkli məsləhətlər verəcək. Güzgüyə baxan adam oradakı ekran vasitəsi ilə virtual şəkildə təqdim olunmuş nümunələri geyinə biləcək. Daha sonra isə seçdiyi geyimləri onlayn sifariş də edə biləcək.

## Eynək, həm də qulaqcıq...



İnsanlar qulaqcıqlardan geniş istifadə etsələr də, bəziləri buna çox da həvəs göstərmirlər. Səbəb də budur ki, qulaqcıq taxarkən insan ətrafda baş verən hadisələrdən təcrid olunur və bu da müəyyən təhlükələrə səbəb olur. Məsələn, yolu keçərkən qulaqcıq taxmış şəxs nəqliyyatın təhdidlərinə tamamilə müdafiəsiz olur. Hələ qulaqcıqların insan sağlamlığına yaratdığı ciddi təhlükələri demirik. Həkimlər uzun müddət davamlı şəkildə qulaqcıq taxmış şəxslərin eşitmə qabiliyyətində və beyin-sinir sistemində ciddi problemlər yarandığını bildirirlər.

Amerikanın "Bose" şirkəti bu problemin də həlli yolunu tapıb. Şirkətin təqdim etdiyi eşitmə cihazı günəş eynəklərinin sağanaqlarına quraşdırılır və eşitmə orqanlarına səs siqnalları buradan ötürülür. Qısaca desək, bu gün qulaqcıqlar vasitəsilə daha çox istifadə olunan musiqilər məhz buradan dinləyiciyə çatdırılır və ən maraqlısı da odur ki, bu səsləri ən yaxınlıqdakı insanlar eşitmirlər. Eynəklərin mobil rabitəyə qoşulması üçün telefona "Bose Connect" proqramı yüklənməlidir. Bu günəş eynəkləri telefona "bluetooth" vasitəsilə qoşulur.

## "Ağıllı" saatlar həyatımıza daxil olur

Günümüzdə valideynlər övladlarının hərəkətlərini və yerlərini asanlıqla müəyyən etmək üçün onlara ağıllı saatlar alırlar. Lakin bu zaman bəzi təhlükələr gözlənilir. Bu təhlükələr nələrdir? Uşaqlarımıza "ağıllı" saat alarkən daha çox nəyə diqqət etməliyik?



Bu saatlar serverlərə asanlıqla qoşulduğu üçün qorunmadığı təqdirdə hakerlər uşaq haqqında məlumatları, onun nömrə və söhbətlərini əldə edə, hətta bilavasitə ünsiyyət də yarada bilərlər. Bunun üçün cihazın etibarlılığından və təhlükəsizlik sistemindən əmin olmaq lazımdır.

"Ağıllı" saatların son versiyaları uşaqların söhbətlərini və ətrafındakı səsləri dinləməyə imkan verir. Bu situasiyalarda saatların enerji qidalandırıcıları da çox önəmlidir. Belə ki, bu saatların nə qədər çox funksiyaları olarsa, enerjisi də bir o qədər tez tükənir.

Cihazla server arasındakı əlaqə mütləq şifrələnməlidir. Müəyyən zəifliklər hər bir sistemdə mümkündür. Vacib məqam isə vaxtında təhlükənin fərqində olmaqdır. Bu zaman məsuliyyəti yalnız istehsalçı şirkət deyil, həm də valideyn daşıyır. Valideynlər təhlükəsizlik proqramlarını daim yeniləməlidirlər.

## Mövcudluğuna inanmayacağınız məhsullar

- Gün keçdikcə günəş enerjisi ilə çalışan cihazların sayı artır. Bunlardan biri də xüsusi printerlərdir. Hələ ki, yalnız bir neçə nüsxəsi olan bu məhsulun kütləvi satışı yaxın illərdə həyata keçiriləcək. Ən müsbət cəhəti isə yığcamlığı, elektrik enerjisi və boya məhsuluna ehtiyacı olmamasıdır. O, günümüzədək təqdim olunan ekoloji cəhətdən ən təmiz printerdir.
- Hava proqnozu verə bilən çətir də tezliklər hər birimiz üçün əlçatan olacaq. Bunun üçün xüsusi sensor ekrana malik çətirə yalnız elektron poçt ünvanı daxil etmək kifayətdir. Çətirin üzərində hava şəraitinin dəyişkənliyini xəbərdarlıq edən xüsusi led işıqlar var.
- Selfi çəkmək son illərin ən populyar vərdişlərindən biridir. Bu prosesi daha da asanlaşdırmaq üçün selfi çubuğu kimi aksesuar da istifadəyə verilib. Lakin bunların içərisində ən rahatı son icad hesab olunan selfi dronlarıdır. Cihaz Çinin "DJI" şirkətinin məhsuludur. Bəhs olunan dron ən təcrübəsiz insanların belə rahat istifadə edəcəyi şəkildə hazırlanıb. Mini pilotsuz təyyarə ovucunuzdan havaya qalxır, üzünüzü tanıyır, əlinizlə verdiyiniz əmrləri qəbul edir, istədiyiniz şəkilləri çəkir və yenidən ovucunuza qayıdır.
- Yaponiyanın tanınmış avtomobil istehsalçılarından biri olan "Nissan" şirkəti çox maraqlı bir yeniliyə imza atıb. Şirkət çarxlı tərlikləri təqdim edib. Bu tərlik insanı təyin etdiyi yerə qədər aparır, geyinmədikdə isə xüsusi qurğu vasitəsilə məsafədən idarə oluna bilir. Bu tərliklər hazırda yalnız Yaponiyanın Hakone şəhərindəki "ProPILOT Park Ryokan" hotelində isifadə olunur.



- "Myo Armband" bütün elektron cihazlarla işləyə bilən universal bir pultdur. Bu qolbaq içərisində olan sensorlar sayəsində qolun hərəkəti zamanı əzələlərdən keçən elektrik enerjisini "oxuyur" və ətrafdakı cihazları istifadə etməyinizə imkan verərək qol hərəkətləri vasitəsilə xüsusi əmrlər verir.
- Görənləri təəccübləndirən digər bir məhsul isə "sehrli" zibil qutusudur. Qutunun üzərində içərisinə atdığınız hər şeyi qeyd edən kiçik bir kamera və barkod oxuyucusu var. Bütün tullantılar haqqında məlumatlar xüsusi sayta, yəni sifarişlərinizin hazırlandığı və sizə təhvil verildiyi yerə göndərilir. Beləliklə də, alış-veriş siyahısına ehtiyac qalmır. Tullantılarınıza əsasən sayt bunu özü tənzimləyir.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# REQUEST FOR EXPRESSIONS OF INTEREST

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
Loan No.8286-AZ

**Assignment Title: Selection of International Consultant for Seed quality control on international accreditation and ISTA compliance. Reference No. AZ-AACD-250449-CS-INDV-B2/SC**

The Government of Azerbaijan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds for consulting services.

The project consists of three components:

(i) *Component A - Support for sanitary and phytosanitary services, which is structured into three subcomponents: (i) Food Safety Capacity Building; (ii) Upgrading Plant Health and Phytosanitary System, and (iii) Animal Health and Veterinary Services.*

(ii) *Component B - Agri-food value chain development.* The Component helps to develop value chains by partially financing demand-driven investment proposals. It also supports activities for improving seed varieties and quality of seeds entering the market. The activities are structured into two sub-components: (i) Investment and advisory support for agribusiness value chain development, and (ii) Seed sector development.

(iii) *Component C - Financial services to agribusiness* promotes growth of agribusiness/agro-food processing enterprises through a line of credit to enhance their competitiveness, increase production and improve technologies.

Project activities under sub-component B2 are coordinated with the Agrarian Service Agency, the PMU Monitoring and Evaluation specialist.

**The general objective**

The objective of assignment is to assess the impact of Project investments in seed production, processing, testing and certification services, which have been supported within ACIP seed sector development sub-component.

Scope of works:

- Review the current state of the seed certification system in Azerbaijan
- Assessment of central laboratories management experience and staff skills
- Conduct appropriate research and develop a Roadmap for the application of OECD schemes
- Identification of priority plants - study of the benefits and costs of OECD certification for different crops
- Development of recommendations for capacity building/training on ISTA requirements
- Developing of Roadmap for ISTA accreditation of the central laboratory, including guidelines for the application.
- Undertake other duties as might be required within the frame of the assignment.

**Expected outputs and deliverables:**

- Capacity development program for ASA in the field of seed sector ISTA and OECD accreditation. The capacity building program shall include recommendations on specific training topic required for accreditation
- Proposal on improvement of seed certification system in Azerbaijan
- Roadmap which will include Action plan and guidelines on application for obtaining ISTA and OECD accreditation/ acceptance of Central Seed Testing Laboratory
- Consultant will make presentation/workshop on his/her recommendations and discuss them with the ASA, PMU and all concerned parties.
- Final Report reflecting recommendations on all above-mentioned, including analysis and recommendations.

**Duration of the assignment**

It is estimated that a total input of 30 work/days will be required, deployed in few missions on site during the period September 2021 - November, 2021. The first mission to Azerbaijan is scheduled for October 2021.

**The shortlisting criteria are:**

- Advanced university degree in agronomy (expert on seed system / variety testing and registration, seed processing, seed system regulations);
- Over ten years' experience in the subject field(s)
- Previous experience with World Bank-funded projects and understanding of its requirements is preferable
- Previous experience of working in the region/country would be an asset.
- Excellent written and spoken English and strong writing skills;
- Working knowledge of Azerbaijani and/or Russian language is asset, but not a requirement
- Sharing knowledge and experience, communicating ideas and managing information flow;
- Good inter-personal and communication skills.
- Excellent knowledge of Microsoft office programs

The Agricultural Competitiveness Improvement Project now invites eligible individual consultants to indicate their interest in providing the services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank's *Guidelines: Selection and Employment of Consultants under İBRD Loans and İDA Credits & Grants] by World Bank Borrowers, January 2011 edition, revised July 2014* ("Consultant Guidelines"), setting forth the World Bank's policy on conflict of interests.

A Consultant will be selected in accordance with the Individual Consultancy method set out in the Consultant Guidelines.

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by September 23, 2021.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**
**Attn: Mr. Anar Azimov**
**Project Director**
**1965, Z.Bunyadov avenue, Chinar Park Business Center, AZ1075, Baku, Azerbaijan**
**Tel: (+99 412) 525 01 17**
**E-mail:** anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com;nargiz.acip@gmail.com
**Web:** www.akia.gov.az

Further information can be obtained at the address above during office hours 09:00 - 18:00.

# Azərbaycanda daha bir helikopterin əsaslı təmiri başa çatıb



Azərbaycanın mülki aviasiya tarixində ilk dəfə belə irimiqyaslı layihənin həyata keçirilməsi "ASG Holding"in prezidenti Teymur Məmmədovun və Azərbaycan Respublikası Hərbi Hava Qüvvələrinin Komandanı Ramiz Tahirovun iştirakı ilə Zabrat hava limanında keçirilən tədbirdə qeyd edilmişdir. Tərəflər müvafiq "təhvil-təslim" aktını imzalamış və onlara helikopterin simvolik açarı təqdim olunmuşdur.

Qeyd olunan servis mərkəzi "ASG Helicopter Services"in törəmə şirkətidir və Rusiya istehsalı olan helikopterlərin əsaslı təmiri ilə məşğuldur.

Bu, Azərbaycan ərazisində həyata keçirilən üçüncü təmirdir. Lakin əvvəlki iki təmirdən fərqli olaraq bu dəfə hərbi-nəqliyyat təyinatlı helikopterin təmiri həyata keçirilmişdir.

Səyyar əsaslı təmir xidmətlərinin göstərilməsi, helikopter istehsalçıları tərəfindən Servis mərkəzinə icazənin verilməsi və hava gəmilərinin əsaslı təmirinin aparılması üçün müvafiq müstəqil sertifikatın alınması prosesinin bir hissəsidir.

Bölgədə Rusiya istehsalı olan helikopterlərin əsaslı təmiri üçün ilk aviasiya təmiri müəssisəsinin tikintisinə 2020-ci ildə "ASG Helicopter Services" tərəfindən tam maliyyələşdirilməklə başlanılmışdır.

Qeyd edək ki, həmin mərkəz hal-hazırda bu sahədə istifadə olunan müasir avadanlıqlarla təchiz olunub. Mərkəzin istehsalat gücü İldə 12 vahiddən 15 vahidədək təmirin aparılması üçün nəzərdə tutulmuşdur. Güc qurğularının və çıxarıla bilən avadanlıqların bir hissəsinin təmiri həm ölkədəki, həm də xaricdəki aparıcı sənaye müəssisələrində həyata keçiriləcəkdir. Aviaşirkətin əsasında tam funksional servis mərkəzini qurmaq fikri ilk maşının səyyar təmiri mənimsənildikdən sonra yaranmışdır. Belə bir mərkəzin yaradılması layihəsi Azərbaycan ilə Rusiya arasında iqtisadi və hərbi-texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın protokollarının bir hissəsi olmuşdur.

Qeyd edək ki, servis mərkəzində işlərin ilkin mərhələsində 100 nəfərədək şəxsin işlə təmin olunması planlaşdırılır. Gələcəkdə Mərkəzin istehsal dövriyyəsi artdıqca işçilərin sayı da artacaqdır.

# Vəzifəli şəxsdən pul alan xəbər portalının rəhbəri cinayət başında yaxalanıb

**Qanunsuz üsullarla, o cümlədən sosial şəbəkə və informasiya resurslarından öz maraqları naminə istifadə edərək vətəndaşların şərəf və ləyaqətini alçaldan hərəkətlərə yol verməklə qanunsuz gəlir əldə edən şəxslərin ifşa olunaraq məsuliyyətə cəlb edilmələri istiqamətində prokurorluq orqanları tərəfindən müvafiq tədbirlər fasiləsiz həyata keçirilir.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərdən biri kimi, "azadinfo.az" MMC-nin təsisçisi Ələkbərov Mahir Məmmədhəsən oğlunun qanunsuz hərəkətlərinin ifşa olunması istiqamətində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri keçirilib. Belə ki, Mahir Ələkbərov sentyabrın 8-də "azadinfo.az" xəbər paylaşım platformasında YAP-ın Binəqədi rayon təşkilatının sədri vəzifəsini icra edən Ramiz Göyüşovun barəsində qeyri-etik videogörüntülərin xəbər saytlarında yayacağını sonuncuya bildirərək görüşməyi təklif edib. O, Ramiz Göyüşov görüşə gəlmədikdə onu qəsdən hörmətdən salan rüsvayedici məlumatları videoçarx formasında "azadinfo.az" xəbər portalında sentyabrın 8-də qəsdən yayıb, həmin məlumatların yayılmasının qarşısının alınması üçün sonuncunun özü ilə görüşməsinə nail olaraq, videogörüntülərin qeyd edilən səhifədən silinməsi məqsədilə 2 min manat məbləğində pulu alarkən cinayət başında yaxalanıb.

Qeyd edilənlərlə bağlı sentyabrın 9-da Baş Prokurorluqda Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb və Mahir Ələkbərov şübhəli şəxs qismində tutulub. O, sentyabrın 10-da həmin Məcəllənin 182.1-ci (hədə-qorxu ilə tələb etmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilib və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu xəbərdarlıq edərək kütləvi informasiya vasitələri və sosial şəbəkə istifadəçilərinə etik normalara riayət edilməsini və bu kimi sui-istifadə hallarının qanunvericiliyin tələblərinə əsasən cinayət məsuliyyətinə səbəb olduğunu bildirir.

Habelə bu qəbildən olan qanunazidd hallarla üzləşən şəxslərə Baş Prokurorluğun 961 nömrəli Çağrı Mərkəzinə və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 - "Qaynar xətt" əlaqə mərkəzinə, eləcə də sosial şəbəkələrdəki səhifələrinə məlumat verilməsini tövsiyə edir.

# Agricultural Competitiveness Improvement Project
## Loan No 8286-Az
## AWARD NOTICE

**10.09.2021**

**Procurement of Phytosanitary, Food safety and Veterinary tool kits for Azerbaijan Food Safety Agency- AZ-AACD-238507-GO-RFB -A1/G-9-1**

This notice includes findings of bid evaluation for the bidding process held for the **procurement of Phytosanitary, Food safety and Veterinary tool kits for Azerbaijan Food Safety Agency.**

The Invitation for Bids was advertised in www.akia.gov.az on June 17, 2021 and in newspaper Azerbaijan, on June 18, 2021 and deadline for submission of bids was specified as July 16, 2021, 15:00 local Baku time.

4(four) companies applied to the PMU for obtaining of the bidding documents:

| No | Name of Company | Country origin | Date of apply |
|---|---|---|---|
| 1 | "UAB Lokmis" | Bulgaria | June 18, 2021 |
| 2 | "Dariservis" LLC | Azerbaijan | June 21, 2021 |
| 3 | "Medeks" LLC | Azerbaijan | July 02, 2021 |
| 4 | "FF Supply Services" LLC | Azerbaijan | July 06, 2021 |

Following 2 (two) companies submitted their bids by the deadline, July 16, 2021 by 15:00. Read-out prices were as follows:

| No | Name of Company | Read out prices | Bid Security |
|---|---|---|---|
| 1 | "FF Supply Services" LLC | 319 124.92 AZN | 6 000 AZN (Beynəlxalq Bank) |
| 2 | "Dariservis" LLC | 256 063.06 AZN | 6 000 AZN (MuganBank) |

Reasons for rejections:

| No | Name of Company | Read out prices | Reasons for rejections |
|---|---|---|---|
| 1 | "FF Supply Services" LLC | 319 124.92 AZN | Awarded |
| 2 | "Dariservis" LLC | 256 063.06 AZN | Incomplete Bid Proposal for inspector bags |

Considering the detailed check results, the Evaluation Committee issued the recommendation to award the Contract to substantially responsive and lowest evaluated Bidder **"FF Supply Services" LLC (Azerbaijan) with the Contract amount AZN 319 124.92 (three hundred nineteen thousand one hundred twenty four manats and ninety two gapiks) included VAT, DDP Terms of supply.**

**Contract was signed on September 09, 2021.**

# Azərbaycan Respublikası Əqli Mülkiyyət Aqentliyinin tabeliyində olan Respublika Elmi Texniki Kitabxana Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları, 124 ünvanda yerləşən inzibati binaya bitişik ikimərtəbəli əlavə tikilinin divarları və pilləkən qəfəsində qücləndirmə bərpa işlərinin aparılması məqsədilə *açıq tender elan edir*

Tender proseduru Azərbaycan Respublikası Qanununun 50-1.1-ci maddəsinin tələblərinə uyğun olaraq mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə açıq tender üsulu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilir. Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər müəyyən edilmiş məbləğdə iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə və müsabiqə üzrə təkliflərini elektron qaydada təqdim edə bilərlər.

**İştirak haqqı: 500 manat.**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Bankın adı: "Beynəlxalq Bank"ın Nərimanov filialı**
**Bankın kodu; 805540**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T BIK: İBAZAZ2X**
**H/h: AZ161BAZ38090019446270478206**
**VÖEN: 1700333931**
Əlaqə telefonu: (012) 4496274 (daxili 154, 960)
Elektron poçt ünvanı:retk@copat.gov.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsilə təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatlarının surəti, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayışı;*
- *iddiaçının vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin mövcud olmaması haqqında müvafiq vergi orqanından arayışı;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq subyekti meyarlarına uyğun olması barədə arayış;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 45 bank günü müddətində icra olunmalıdır.

Tender təklifləri Azərbaycan dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq vahid internet Portalı www.etender.gov.az vasitəsilə elektron qaydada keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **01 oktyabr 2021-ci il saat 12:00-a** qədər tender təklifi və bank təminatını isə **11 oktyabr 2021-ci il saat 12:00-a** qədər elektron qaydada təqdim etməlidirlər. İddiaçıların təklifləri **12 oktyabr 2021-ci il saat 12:00-da** Portal vasitəsilə elektron qaydada açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Qeyd:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi, yazışmalar, sual-cavablar və digər prosedurlar yalnız elektron qaydada vahid internet Portalı vasitəsilə aparılır.*

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Sevinc İsmayılovaya atası

**MƏMMƏD İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Məhəmməd Balaqadaşova qardaşı

**NADİRŞAH BALAQADAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun kollektivi texnika elmləri doktoru, professor

**OQTAY QÜDRƏT OĞLU NÜSRƏTOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının kollektivi kafedranın müəllimi Akif Rəfiyevə həyat yoldaşı

**ƏSMAYƏ RƏFİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin kollektivi iş yoldaşları Rövşən Cəlilova anası

**ŞAHNAZ CƏLİLOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xızıdan İlham Məmmədov ailəsi ilə birlikdə Salmanovlar ailəsinə əzizləri "Şöhrət" ordenli veteran-neftçi

**SÖHRAB SALMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4968
Sifariş 1647
Qiyməti 40 qəpik